26 iyul 2019-cu il
№27 (8842)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**"Olimpiya mədəniyyəti və təhsil proqramı"** ⇨səh.3

**"Azərbaycan üçün öyrət"** ⇨səh.3

**Zərdabi niyə müəllim oldu?** ⇨səh.5

**Dünya ilə yarışan məktəblilərimiz** ⇨səh.8

# Ən yüksək ad uğrunda

## 18881 namizəd növbəti mərhələyə keçdi



İyulun 8-24 tarixlərində keçirilən müəllimlərin işə qəbulu müsabiqəsinin imtahan mərhələsi yekunlaşıb. Müraciət edən 54687 namizəddən 48204 nəfəri imtahanda iştirak üçün dəvət olunsa da, imtahanlara 41288 namizəd qatılıb.

### Nəticələri ilə öyünənlər

Bu mərhələnin ilkin nəticələrinə əsasən, imtahanda iştirak etmiş namizədlərdən 18881 nəfəri (46 faiz) uğur qazanaraq müsabiqənin növbəti mərhələsinə vəsiqə qazanıb. Onlardan 3 nəfər imtahanlarda maksimal nəticə göstərib. Bu imtahanlarda iştirakçılardan 2 nəfər 59, 14 nəfər isə 58 bal toplayıb.

Müsabiqədə iştirak hüququ qazanan 4894 namizəd ali və orta ixtisas təhsili müəssisələrindən bu il məzun olanlardır.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyevanın sözlərinə görə, bu il imtahanlarda 21375 namizəd ilk dəfə, 19913 namizəd isə təkrar iştirak edib. Bəzi namizədlər keçən il bir fəndən, bu il isə digər yaxın fəndən imtahan verib. Təkrar iştirak edən namizədlərin əksəriyyəti ötənilki nəticələrindən daha yüksək nəticə qazanmağa nail olub.

⇨Ardı səh.4

# Yeni nəsil əsilZadələr

Son dövrlərin ən çox müzakirə olunan mövzularından biri də Z (zet) nəslidir. 1995-ci ildən 2010-cu ilədək doğulan şəxslər həmin o Z nəslin təmsilçiləridirlər. Ən böyüyünün 24 yaşı var. Tez-tez eşidirik: "Axı bu uşaq əlinə niyə bir kitab almır? İşi-gücü kompüterlədir". Bax, bu deyilənlərin ünvanı söhbət açdığımız Z nəslin təmsilçiləridirlər. Qısaca olaraq bizim övladlarımız...

### Virtual dünyanın yetirmələri

Bu nəslin nümayəndələrini ən çox maraqlandıran sabitlik və təhlükəsizlikdir. Onları tez-tez "tənbəl" də adlandırırlar. Xeyr, tənbəl deyillər, sadəcə olaraq informasiya əsrinin yetirmələridirlər. Süni intellektlə ünsiyyətdədirlər. Bizi başa düşmürlər. Biz də onları başa düşməkdə çətinlik çəkirik. Çətin ola bilər, ancaq qəbul etməliyik.

Z-lər iqtisadi böhranlar və terror aktları illərində doğulub boya-başa çatıblar. Hansı TV-yə baxırsan terror, hansı nəşri açırsan maliyyə sıxıntısı. Gündəlik xəbərlərin əsas mövzuları qalmaqallar və qəzalardır. Z-lərin sabitlik və təhlükəsizlik axtarışının başlıca səbəbi məhz budur. Məqsəd risklərdən qaçmaqdır. Onlar yığımcıldırlar, yeməyi qənaətlə yeyirlər, zərərli vərdişlərdən uzaq durmağa çalışırlar. Onlar uşaqdırlar, ancaq bir çox hallarda valideynləri olan X-lərdən daha təmkinli və müdrik görünürlər. Z-lər idealist X-lərdən daha praqmatikdirlər və texnologiyalara bağlıdırlar.

Təhlükəsizlik "eşq"ində "zetlər" nənə-babalarına - "Baby Boomer"lərə bənzəyirlər. Ötən əsrin 50-60-cı illərinin nəsli üçün də məşğulluq başlıca həyat kredosu idi. Şirkətlər bir çox hallarda yaxşı mütəxəssis olan "Baby Boomer"lərə ömürlük müqavilə və saysız-hesabsız güzəştlər vəd edirdilər. Z-lərdə bir az fərq var: onlar üçün sabitliklə yanaşı, işgüzarlıq amili də mövcuddur. İşəgötürənlər artıq şikayət etməyə başlayıblar ki, yeni nəsil işçilərin professional etika ilə bağlı problemləri var. Statistikaya görə, məzunların təqribən yarısı bu "çatışmazlıq"dan əziyyət çəkir. Ancaq məsələnin müsbət tərəfi də var. "Forbes" yazır ki, "zetlər"in 60%-i işə düzəlmək yox, öz bizneslərini qurmaq istəyir. Maraqlıdır ki, rəyi soruşulanların üçdəikisi pulu öz hobbilərindən qazanmağa üstünlük verir. İlk baxışda bu reallıq işəgötürənlər üçün başağrısıdır. Ancaq dalan da deyil: gəncləri layihə işlərinə cəlb etmək, məhsuldarlıqdan asılı olaraq diferensiallaşmış əməkhaqqı ödəməklə onların unikal bacarıqlarından yararlanmaq olar.

"Zetlər"in ən mühüm üstünlükləri texnologiya biliciləri olmalarıdır. Onlar üçün internetdən əvvəl mövcud olan dünya yoxdur. Z-lər üçün virtual dünya nədirsə, real dünya da elə odur.

⇨Ardı səh.8

# Ömürboyu təhsil və liderlik

## UNEC təhsilimizə yeni innovasiyalar gətirir

Məlumdur ki, XXI əsrin doğurduğu ən mühüm trendlərdən biri ali təhsil sistemində yeni innovasiyaların tətbiqi ilə bağlıdır. Müasir universitet modeli öz fəaliyyətində ölkənin dünya arenasında rəqabət qabiliyyətliliyinin gücləndirilməsinə xidmət edən yüksək intellektli, peşəkar, müasir səriştə və bacarıqlara malik insan potensialı yetişdirən, həm də qlobal elmi tədqiqatları ilə seçilən ali məktəbi xarakterizə edir. Universiteti dünyada tanıdan, nüfuzunu göstərən innovativlikdir. İnnovativ ideyaları öz elmi-tədris fəaliyyətində uğurla tətbiq edən ali məktəb isə dünyanın ali təhsil sistemində inamlı mövqeyi ilə seçilir. Bu cür mövqe ali məktəbin təşəbbüskarı olduğu elmi tədbirlər, konfranslarda da özünü göstərir.

Artıq bir neçə ildir ki, ölkəmizin ali təhsil sistemində özünün yenilikçi yanaşmaları ilə seçilən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) uğurlu ali təhsil müəssisəsi modeli olaraq ömürboyu təhsilin strategiya və konsepsiyasının hazırlanması, həyata keçirilməsi sahəsində təşəbbüslərlə çıxış etməkdədir.

Ölkəmizdə müasir innovasiyaların ünvanı imicini qazanan UNEC növbəti dəfə dünyanın ən nüfuzlu universitetlərinin iştirakı ilə mötəbər konfransa ev sahibliyi edib. Söhbət iyulun əvvəllərində UNEC və Türkiyənin Sakarya Universitetinin birgə təşkilatçılığı ilə "V Ömürboyu təhsil və liderlik" mövzusunda keçirilən beynəlxalq elmi konfransından gedir. 2015-ci ildən keçirilən yüksək səviyyəli konfransın əhəmiyyəti, məqsədi, əsas gözləntiləri nədir? Ömürboyu təhsili zərurətə çevirən hansı faktorlar var? Bu suallarla konfransın Elm komitəsinin üzvü, UNEC-in "İqtisadiyyat və və idarəetmə" kafedrasının müdiri, professor Yaşar Kəlbiyevlə müzakirə edirik.

İlk növbədə qeyd olunmalıdır ki, sayca 5-ci dəfə keçirilən və UNEC-in ev sahibliyi etdiyi konfransda ABŞ, İngiltərə, Yaponiya, Çexiya, İtaliya, Latviya, Portuqaliya, Polşa da daxil olmaqla dünyanın 40-a yaxın ölkəsindən 250-dək təhsil və elm mütəxəssisi iştirak edib. Bu cür yüksək iştirak səviyyəsi tədbirin mötəbərliyindən və aktuallığından xəbər verir. Fəxri sədrləri Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və Türkiyənin Sakarya Universitetinin rektoru, professor Fatih Savaşan olan konfransda ABŞ-ın Corciya, Qərbi Miçiqan, Böyük Britaniyanın Kembric, Nottingem, Rocester, Braziliyanın San Paulu, Türkiyənin Ankara, Boğaziçi, Yıldız Texnik, İstanbul Texnik, Sakarya və dünyanın digər universitetlərindən olan professor-mütəxəssislər ömürboyu təhsil və liderlik mövzularında çıxışlar ediblər.

⇨Ardı səh.6



# 1535 nəfər köçürülmək üçün müraciət edib

## Tələbələrin köçürülməsi üzrə sənəd qəbulu başa çatıb

Səh.8

# STEM-təhsil evdən başlayır

Müasir dünya çox sürətlə dəyişir və təhsil sistemi həmişə bu dəyişikliklərlə ayaqlaşa bilmir. Gələcək üçün müəyyən biliklər deyil, uşaqların yeni şəraitə asanlıqla uyğunlaşmasına imkan verəcək xüsusi bacarıqlar getdikcə daha çox əhəmiyyət kəsb edir.

STEM məhz bacarıqların inkişafı haqqındadır. STEM-in açıqlaması aşağıdakı kimidir: təbii elmlər, texnologiyalar, mühəndislik, riyaziyyat. STEM yanaşmanın əsas ideyası texniki problemlərin və onların həllinə yaradıcı yanaşmanın uyğunluğudur. STEM-i evdə də tətbiq edə bilərsiniz. Bunu necə edəcəyimizə nəzər salaq.

Məktəbəqədər yaşda elmin öyrənilməsi ətraf aləmin müşahidəsi vasitəsilə təbii şəkildə baş verir. Valideynlərin vəzifəsi uşağın maraqlarını təşviq etmək və inkişaf etdirməkdir.

STEM yanaşmada ilk dərslər sadə birgə gəzintilərdir. İlin isti vaxtlarından həşəratları, quşları, təbiəti müşahidə etmək üçün istifadə edilə bilər. Ev mətbəxi də məşğələ üçün gözəl yerdir. Orada kiçik bir laboratoriya təşkil edə bilərsiniz. Eksperimentlər üçün xüsusi texnoloji dəstlər ala bilərsiniz - onlar yaşa və istiqamətə görə bölünür. Fizika, biologiya, kimya dəstləri var.

Dərslər zamanı ən vacib məqam uşağa tapşırığın düzgün şəkildə necə aparılacağını izah etməyə tələsməməkdir. Uşağa hipotezlər irəli sürməyə və onu yoxlamağa icazə verin, qoy, prosesdə səhv etsin və səhvin haradan qaynaqlandığını özü anlasın.

⇨Ardı səh.2

# Beynəlxalq İnformatika Olimpiadasının praktiki sessiyası işə başlayıb

Avqustun 4-dən 11-dək Azərbaycanda keçiriləcək 31-ci Beynəlxalq İnformatika Olimpiadasının (IOI 2019) praktiki sessiyası işə başlayıb.

Sessiyaya giriş üçün yarışma iştirakçılarına və komanda rəhbərlərinə elektron məktub göndərilib. Olimpiada iştirakçıları *practice.ioi2019.az* saytında praktiki tapşırıqları həll edərək təcrübə toplaya bilərlər. Praktiki sessiya avqustun 4-dək istifadəçilər üçün açıq olacaq.

Bununla yanaşı, qısa zamanda canlı reytinq cədvəli də təqdim olunacaq. Bu qiymətləndirmə sistemi "IOI 2019" zamanı istifadə ediləcək. Buna görə də bütün iştirakçılar müvəqqəti praktiki məsələləri bu sistem vasitəsilə həll etməlidirlər.

Müsabiqə haqqında ətraflı məlumatı "IOI 2019"un rəsmi veb-saytından əldə etmək mümkündür.

Qeyd edək ki, Azərbaycan Beynəlxalq İnformatika Olimpiadasında 24 dəfə təmsil olunub. Ümumilikdə 55 azərbaycanlı məktəbli bu olimpiadada iştirak edib. Şagirdlərimiz bu olimpiadadan indiyədək biri gümüş, dördü bürünc olmaqla beş medal qazanıblar.

AZƏRTAC

## RƏSMİ XRONİKA



- İyulun 24-də Prezident İlham Əliyev Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 23-də Çin Xalq Respublikasının, Almaniya Federativ Respublikasının, İsveçrə Konfederasiyasının, Malayziyanın, Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.
- Prezident İlham Əliyev iyulun 22-də Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında Sərəncam imzalayıb.
- İyulun 21-də XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.
- İyulun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Neapol şəhərində keçirilən Tələbələrin XXX Ümumdünya Yay Universiadasında ən yüksək nəticələrə görə Azərbaycan idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında Sərəncam imzalayıb.
- İyulun 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.
- Dövlət başçısı İlham Əliyev iyulun 19-da "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında, eləcə də "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında müvafiq fərmanlar imzalayıb.
- İyulun 19-da Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "ADA" Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 8 iyul tarixli 211 nömrəli, "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2014-cü il 26 dekabr tarixli 432 nömrəli və "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi və "Bakı Mühəndislik Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" 2017-ci il 21 fevral tarixli 1254 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.

# Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin sentyabr ayında görkəmli dilçi alim, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmmədağa Şirəli oğlu Şirəliyevin anadan olmasının 110 illiyi tamam olur.

Akademik Məmmədağa Şirəliyev mühüm elmi əhəmiyyətə malik sanballı tədqiqatları ilə Azərbaycan dilçiliyini zənginləşdirmiş, onun bir çox istiqamətlərinin müəyyənləşməsi və formalaşmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Alimin dilçiliyin aktual problemlərinin öyrənilməsində, xüsusən Azərbaycan dialektologiyasının əsaslarının yaradılmasında və türkoloji dilçilik sahəsində ardıcıl nailiyyətlər qazanılmasında müstəsna rolu vardır. Azərbaycan dilinin ilk dialektoloji atlası və lüğətlərinin tərtibi Məmmədağa Şirəliyevin adı ilə bağlıdır. SSRİ Elmlər Akademiyasının Bakıda iyirmi ilə yaxın bir dövr ərzində Məmmədağa Şirəliyevin rəhbərliyi altında işıq üzü görən "Sovetskaya tyurkologiya" jurnalı bu səpgidə yeganə nüfuzlu nəşr olub, beynəlxalq elm məkanında dünya türkoloqlarının mötəbər tribunasına çevrilmişdir. Alim respublikada və onun hüdudlarından kənarda filoloqların yeni nəslinin müasir elmi-nəzəri biliklərə dərindən yiyələnməsi üçün var qüvvəsini əsirgəməyərək uzun illər ali təhsil ocaqlarında dilçilik kursu üzrə mühazirələr oxumuş, həmçinin yüksəkixtisaslı dilçi kadrların hazırlanması işinə böyük əmək sərf etmişdir. Məmmədağa Şirəliyev, eyni zamanda, mövcud elmi potensialdan daim ölkənin və xalqın mənafelərinə uyğun səmərəli istifadə olunmasına çalışan bacarıqlı elm təşkilatçısı kimi tanınırdı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dilçilik elminin inkişafına qiymətli töhfələr vermiş görkəmli alim Məmmədağa Şirəliyevin anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Məmmədağa Şirəliyevin 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 iyul 2019-cu il*

## Təhsil Nazirliyi yanında İctimai Şura yaradılacaq

Təhsil naziri Ceyhun Bayramov Təhsil Nazirliyi yanında İctimai Şuranın yaradılması haqqında əmr imzalayıb. İctimai Şuranın yaradılması Təhsil Nazirliyinin fəaliyyətində şəffaflığın daha da artırılması, təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyətin gücləndirilməsini təmin etmək məqsədi daşıyır.

İctimai Şura təhsil sahəsində müxtəlif məsələlərin müzakirəsi üçün məsləhətləşmələr təşkil etmək, təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı Təhsil Nazirliyinə təkliflər vermək və qanunvericiliklə müəyyən edilmiş digər hüquqlara malik olan məşvərətçi qurumdur.

İctimai Şura ictimai əsaslarla (ödənişsiz) fəaliyyət göstərəcək. Təhsil sahəsində ixtisaslaşan hər bir Azərbaycan vətəndaşı İctimai Şuraya üzv seçilə bilər.

İctimai Şuraya seçkilərin təşkili məqsədilə Təhsil Nazirliyinin 4 və təhsil sahəsində ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının 5 nümayəndəsindən ibarət seçki komissiyası yaradılıb. Seçki komissiyasının ilk iclasında İctimai Şura üzvlərinin sayı, namizədlərin, seçicilərin qeydiyyatı və digər təşkilati məsələlər barədə qərar qəbul edilib.

İctimai Şuraya namizədlərin və seçici qismində çıxış edəcək vətəndaş cəmiyyəti institutlarının qeydiyyatı iyulun 22-dən avqustun 23-dək davam edəcək. İctimai Şuraya üzvlüyə namizəd şəxslərə və seçki prosesində seçici kimi iştirak etmək istəyən vətəndaş cəmiyyəti institutlarının təmsilçilərinə dair tələblərlə nazirliyin rəsmi internet səhifəsinin elan bölməsində *(https://edu.gov.az/az/page/228/16933)* tanış olmaq olar.

## Təhsil naziri Böyük Britaniyanın ölkəmizdəki səfiri ilə görüşüb

İyulun 22-də Təhsil naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Karol Kroftsla onun ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.

Görüşdə Azərbaycan və Böyük Britaniya arasında təhsil sahəsində əlaqələrin cari vəziyyətindən məmnunluq ifadə edilib. Təhsil naziri Ceyhun Bayramov iki ölkə arasında təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsinə verdiyi töhfəyə görə səfirə təşəkkürünü bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

# STEM-təhsil evdən başlayır

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**




## Və ya bacarıqları erkən yaşlardan uşaqlarda necə inkişaf etdirmək olar?

Axı, elmdə və həyatda səhv də faydalı nəticədir. Səhv etmək, müvəffəqiyyət və ya uğursuzluq risklərini və imkanlarını qiymətləndirərək hərəkət etməkdən qorxmamaq STEM-yanaşmanı inkişaf etdirən əsas bacarıqlardan biridir.

Oyun zamanı uşağa kömək etmək lazımdır, lakin prosesə nəzarət etmək və problemin həllini onun əvəzinə düşünmək olmaz.

Evdə istənilən dərslər və eksperimentlər valideynlərin dəstəyi ilə keçirilməlidir, lakin sərt nəzarət altında deyil. Uşaq səhv etməyi, düzgün kömək istəməyi, bu və ya digər tapşırığı yerinə yetirərkən uğursuzluq səbəblərini formalaşdırmağı öyrənməlidir.

### Uşaqlara öyrənməni öyrətmək üçün texnologiyalardan istifadə

STEM-təhsildə insanlar tərəfindən icad edilmiş bütün alətlər texnologiyalar hesab edilir. Bu alətlər bizim həyatımızın sadələşdirilməsi üçün lazımdır. İndi valideynlərin çoxu uşaqların qadjetlərə marağından narazıdır, uşaqlar smartfonları əldən vermirlər. Əslində, bunda pis heç nə yoxdur, sadəcə, uşağa yeni biliklərin alınmasında həmin smartfonların necə gərək olacağını başa salmaq və göstərmək lazımdır.

Yeni texnologiyalar məntiqi düşüncəni yaxşı inkişaf etdirir. Artıq üç yaşdan uşaqlar proqramlaşdırmaya yiyələnə bilər. Bundan ötrü kiçikyaşlı uşaqlar üçün, məsələn, LEGO Education Coding Express kimi konstruktorlar var.

Texnologiya və qadjetlər təhsilin düşmənləri deyil, köməkçiləridir. Əsas odur ki, uşağın maraqlarını yönləndirin və ona sadə bir smartfon və ya planşetin yeni biliklər əldə etməyə və yeni bacarıqlara sahib olmağa kömək edə biləcəyini izah edin.

### Uşağın ixtiralarını təşviq etmək

Başəriyyət ixtiraların sayəsində inkişaf edir, uşaqlar isə, əsas ixtiraçılardır. Valideynlərin vəzifəsi uşaqlar üçün elə bir mühit yaratmaqdır ki, o, öz ideyalarını reallaşdıra bilsin.

Uşaq ideyalarının təcəssüm etməsi üçün ən universal alət LEGO kərpicləri və başqa konstruktorlardır. LEGO-dan Education xəttinə diqqəti yönəltmək məsləhət görülür. Bu dəstlərdə uşaqlar təlimata uyğun model yarada və ya öz şəxsi modellərini fikirləşə bilərlər.

Konstrukturlaşdırma uşağa məkan və yaradıcı düşüncəsini inkişaf etdirməyə kömək edir. Belə bir fəaliyyət eyni dərəcədə həm oğlanların, həm də qızların xoşuna gəlir. Və əgər yaradılan modellərə bir azacıq elektronika əlavə edilərsə, konstruktorla oyun daha maraqlı olacaq.

Uşaqlar ixtiralar düşünməyi və icad etməyi sevirlər. Valideynlərin vəzifəsi bu marağı dəstəkləmək və inkişaf etdirməkdir.

### Yaradıcılıq üçün şərait yaratmaq

Yaradıcılıq istənilən yaşda uşaqlarda yaradıcı düşüncənin inkişafı üçün fəaliyyətin ən məhsuldar növüdür. Bütün valideynlərə evdə yaradıcılıq üçün boş sahə yaratmağı məsləhət görərdik, deyək ki, bütün yaradıcılıq materialları istənilən vaxt uşağa əlçatan olsun. Balaca uşaqlar üçün böyük kağız vərəqləri uyğun gələcək - barmaq rəngləri, yumşaq plastilin. Daha yaşlı uşaqlar üçün isə yığma oyuncaqlar və sadə konstruktorlar uyğundur. Bütün bunlar şkaflarda bağlı qutularda gizlədilməməli, uşaqlar üçün əlçatan yerdə olmalıdır.

Bütün yaradıcılıq materialları yaxşı keyfiyyətdə və uşağın yaşına uyğun olmalıdır. Əsas parametr - yaradıcılıq materiali özünün istifadəsinin çətinliyi ilə uşağı yayındırmamalıdır. Yəni, rənglər yaxşı çəkilməli, plastilin yumşaq və daha yaxşı yapışma qabiliyyətli olmalıdır. Yaradıcılıq materiallarının müxtəlifliyinə cəhd etmək lazım deyil. Əsas odur ki, onlara həmişə giriş olsun.

Yaradıcılıqla məşğuliyyətlər bəzən valideynlərin otağın təmizliyi baxımından qayğısını artırır, lakin bu işə uşağı da qoşmaq olar. Uşağa məşğul olduğu yeri özünə təmizlətməyi öyrətmək "siz - birlikdə-müstəqil" prinsipi əsasında olar. Bu prinsip əvvəlcə uşağa təmizlik işlərini sizinlə birlikdə görməyi təklif etməkdir. İlk vaxtlarda uşaqlardan sizə kömək az olacaq, amma sizin vəzifəniz ona nail olmaqdır ki, o, təmizləmə zamanı yanınızda olsun. Zamanla o daha çox prosesə qoşulacaq və sonra vaxt gələcək, sizin köməyiniz olmadan bu işin öhdəsindən gəlməyə başlayacaq.

Uşaq üçün yaradıcılıq məkanı nə qədər böyük olarsa, bir o qədər gələcəkdə böyük yaşlarda istənilən məsələləri yaradıcılıqla həll etməyi öyrənəcək və istənilən problemlərin həllinin ən effektiv yollarını tapa bilmək şansı olacaq.

### Riyaziyyatı sevməyi öyrətmək

Riyaziyyatı öyrənmək və riyazi düşüncəni inkişaf etdirməyə istənilən uşağın gücü çatır. Humanitarlar və riyaziyyatçılar haqqında şablon çoxdan köhnəlib. STEM-yanaşma çərçivəsində riyaziyyatın öyrənilməsi tapşırıq nümunələri və darıxdırıcı məsələlərin həlli vasitəsilə yox, məhz oyunlar vasitəsilə baş verir.

Valideynlərə riyazi oyunlarla da-ir bir neçə kitab və riyazi dəstləri almağı məsləhət görmək olar. Məsələn, riyaziyyatın erkən öyrənilməsi üçün valideynlərə Jenya Katsın "Riyaziyyatla piroq" vəsaitini almaq əla seçim olardı. Bu kitabçada məsələlər 3 yaşdan 7 yaşadək uşaqlar üçün nəzərdə tutulub və dərslik üzrə heç də cansıxıcı məşğuliyyətlər kimi qəbul edilmir.

Erkən yaşda riyaziyyatla məşğuliyyət oyun ətrafında qurulmalıdır. Prosesin təşkili üçün xüsusi kartlar, plakatlar, qeyri-adi məsələlərlə təmin olunmuş vəsaitlər məqsədəuyğun olardı.

### Evdə STEM - bacarıqlarının inkişafı üçün nələr lazım olacaq

- **Tədqiqat dəstləri.** Oyun formasında uşağa diqqətli olmağı öyrətmək, sadə fiziki, bioloji və kimyəvi proseslər barədə məlumat vermək üçün tədqiqat dəstləri çox əhəmiyyətlidir.
- **STEM-konstruktorlar.** Sadə məsələləri qeyri-standart üsulla həll etməyi öyrətmək, modelləşdirmə və məkan düşüncəsinə dair bacarıqları mənimsətmək üçün vacibdir.
- **Yaradıcılıq üçün məhsullar:** plastilin, karton, rənglər, şəkillərin yaradılması üçün dəstlər və bir çox başqa əşyalar. Bütün bu materiallar əlçatan yerdə olmalıdır ki, uşaq həmişə nəsə yeni bir şey yaratmaq həvəsini reallaşdıra bilsin.
- **Valideynlər.** Onlar həmişə yaxında və istənilən oyunda iştirak etməyə hazır olacaqlar. Öyrənmə prosesində övladlarına kömək edəcək, lakin prosesə müdaxilə etməyəcəklər.

# "Olimpiya mədəniyyəti və təhsil proqramı"

## Atletlər kəndində pavilyonun açılışı olub

Azərbaycan Milli Olimpiya Komitəsi, Təhsil, Gənclər və İdman nazirlikləri, "Bakı 2019" Əməliyyat Komitəsinin dəstəyi ilə "Olimpiya mədəniyyəti və təhsil proqramı"nın iyulun 22-də Atletlər kəndində pavilyonunun açılış mərasimi olub.

Pavilyonda Atletlər kəndində məskunlaşan idmançılara, rəsmi nümayəndələrə və qonaqlara proqram vasitəsilə Bakıdan seçilmiş 49 təhsil müəssisəsinin nümayəndələri tərəfindən Avropa ölkələrinin mədəniyyəti, incəsənəti, tarixi və idmanı barədə məlumat təqdim edilir. Pavilyonun qarşıya qoyduğu digər məqsəd gənc idmançılar arasında Olimpiya dəyərləri, mədəniyyətlərarası əlaqə, sülh və dostluğu təşviq etməkdir.

Mərasimdə Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil naziri Ceyhun Bayramov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK baş katibinin müavini Azər Əliyev, üzv ölkələrin Milli Olimpiya komitələrinin rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, müxtəlif ölkələrdən olan qonaqlar iştirak ediblər.



Çingiz Hüseynzadə tədbirdə çıxış edərək dostluğu, qarşılıqlı hörməti, sülhü və mükəmməlliyi özündə ehtiva edən Olimpiya hərəkatının Avropa Gənclər Olimpiya Festivalında təşəkkül tapdığını bildirib. O deyib ki, idmançılar və məktəblilər Olimpiya dəyərlərinin təbliğində əsas aspektləri təşkil edirlər.

Gənclər və İdman naziri Azad Rəhimov "Bakı 2019" Avropa Gənclər Yay Olimpiya Festivalının nəinki Azərbaycanda, Avropanın bütün ölkələrində bədən tərbiyəsi və idmanın inkişafı baxımından töhfəsini yüksək qiymətləndirib. "Biz Avropa Gənclər Olimpiya Festivalı və "Olimpiya mədəniyyəti və təhsil proqramı" vasitəsilə mümkün qədər daha çox uşağın idmana maraq göstərməsini və sağlam həyat tərzi sürməsini istəyirik", - deyə nazir əlavə edib.

Təhsil naziri Ceyhun Bayramov məktəblərin və şagirdlərin bu proqramdakı rolundan danışıb. Bildirib ki, belə layihələr məktəblilərdə sağlam həyat tərzinin formalaşmasında, idmanın kütləviliyinin təmin olunmasında, ölkələr və mədəniyyətlərarası dostluğun inkişafında və istedadlı gənclərin üzə çıxarılmasında misilsiz rol oynayır. Nazir Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi ilə Təhsil Nazirliyinin daha bir uğurlu və tarixi layihəyə imza atdıqlarını vurğulayıb.

Çıxışlardan sonra tədbir iştirakçıları pavilyonla tanış olublar.

Sonda məktəblilərin hazırladıqları bədii hissə təqdim edilib.

**AZƏRTAC**

# "Azərbaycan üçün öyrət"

## Proqram çərçivəsində Təhsil avtobusu 2000 km-dən artıq məsafəni qət edəcək

İyulun 22-də Təhsil Nazirliyində Nəsimi ilinə həsr olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbi ilə bağlı mətbuat konfransı keçirilib.

Konfransda Təhsil nazirinin müavini, tərəfdaş qurumların nümayəndələri və layihənin təşkilatçıları iştirak ediblər.

Təhsil nazirinin müavini Firudin Qurbanov ölkə rəhbərliyi tərəfindən təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərildiyini bildirib, təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırıb. Nazir müavini təhsillə bağlı həyata keçirilən hər bir layihənin böyük əhəmiyyətə malik olduğunu söyləyib.

Firudin Qurbanov deyib ki, əsas məqsəd yeni nəslə təkcə bilik, bacarıq və vərdişlərin ötürülməsi deyil, həm də milli-mənəvi dəyərlərin aşılanmasıdır. Nazirlik tərəfindən bu məqsədlə bir çox layihələrin həyata keçirildiyini, eləcə də "Təhsil avtobusu" yay məktəbinin ənənəyə çevrildiyini qeyd edən Firudin Qurbanov müvafiq layihənin gənclərin hərtərəfli inkişafında faydalı olduğunu diqqətə çatdırıb.

Layihə rəhbəri Şahin Seyidzadə bildirib ki, proqramın məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına şərait yaradılması, əlavə təhsil imkanları ilə şagirdlərin biliyinin, dünyagörüşünün artırılması və Nəsimi yaradıcılığının tanıdılmasıdır. Şahin Seyidzadə layihənin ölkənin 5 bölgəsindəki ümumtəhsil məktəblərinin akademik göstəriciləri zəif və orta olan 6-9-cu sinif şagirdlərinin şəxsi inkişafına, dünyagörüşünün formalaşmasına, onların dərslərə marağının artmasına şərait yaradacağını vurğulayıb.

Qeyd olunub ki, iyulun 23-dən 29-dək davam edəcək yay məktəbi çərçivəsində ölkənin 5 bölgəsində yaşayan şagirdlər peşə, natiqlik, incəsənət, fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edəcək.

"Təhsil avtobusu - Nəsimi" Bakı şəhərindən yola düşərək Qusar-Astara-Cocuq Mərcanlı-Qazax-Şamaxı-Bakı marşrutu üzrə səyahət edəcək. Layihənin bağlanış mərasimi İmadəddin Nəsiminin doğulduğu Şamaxı şəhərində baş tutacaq.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun həyata keçirilən layihə keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasına xidmət edən təhsil proqramıdır.

"Təhsil avtobusu - Nəsimi" yay məktəbi Təhsil Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Kapital Bank"ın əsas dəstəyi, "Bakcell", "Paşa Həyat Sığorta" və "Optimal" şirkətlərinin dəstəyi, "Vitam Reklam", "Şərq-Qərb" ASC əsas tərəfdaşlığı, Azərbaycan İntellektual Klublar Assosiasiyası, "Asmart" yaradıcılıq mərkəzi, "Bir" Tələbə-Könüllü proqramı, "BD Kids", "Code Tusi" şirkəti, SABAH qrupları, "Sabah" Futbol Klubu, "Şəhanə" onlayn mağazasının tərəfdaşlığı ilə keçiriləcək.

Layihənin informasiya dəstəkçiləri İctimai TV, ARB TV, Təhsil TV, 1news.az, AZƏRTAC, "Edumap" Təhsil portalı, "Fam Tram"-dır.

"Təhsil avtobusu" yay məktəbi "Azərbaycan üçün öyrət" Milli Təhsil Proqramının ölkəmizin müxtəlif şəhər və rayonlarını əhatə edən təhsil marafonudur. 2016-cı ildən start götürən "Təhsil avtobusu" yay məktəbi çərçivəsində 6000 km yol qət edilib, Bakı və 12 bölgənin (Lənkəran, Quba, Gəncə, Şəki, Masallı, Cəlilabad, Sabirabad, Mingəçevir, İsmayıllı, Zaqatala, Şəmkir, Qəbələ) 29 şəhər və 31 kənd-qəsəbə məktəbinin, 22 ali və orta ixtisas təhsili müəssisəsinin 550-dən çox şagird və tələbəsi cəlb olunub, təlimçi və ekspertlər tərəfindən 200 akademik saatdan çox həcmdə təhsil proqramları və komanda-öyrədici oyunları keçirilib.

## "Təhsil avtobusu - Nəsimi" yay məktəbi Qusar və Astarada

İyulun 23-də "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində həyata keçirilən "Təhsil avtobusu - Nəsimi" yay məktəbinin Qusarda ilk tədbiri keçirilib.

Açılış mərasimində layihənin təşkilatçıları, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Kapital Bank"ın nümayəndələri iştirak ediblər.

Qeyd olunub ki, yay məktəbinin məqsədi bölgələrdəki ümumi təhsil müəssisələrinin şagirdlərinin şəxsi inkişafına stimul vermək, onlarda həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına təsir etmək, dərsə marağının artırılmasına şərait yaratmaq və məktəblilərə Nəsimi yaradıcılığını tanıtmaqdır.

Qusarın Urva, Çiləgir, Yasab, İmamqulukənd, Quxuroba, Kirig kənd məktəblərinin şagirdlərinin iştirak etdiyi yay məktəbində "Xəyal et və yarat", "Sabahı düşün", "Gələcəyə addımla", "Mən uğurlu natiqəm", "Cahanı kəşf et" və "Nə? Harada? Nə zaman?" intellektual oyun və təlimlər keçirilib.

Sonda iştirakçılar sertifikatla təltif olunublar.

***

İyulun 25-də "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində təşkil olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbinin Astara şəhərində növbəti tədbiri keçirilib.

Açılış mərasimində layihənin təşkilatçıları, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Kapital Bank", Astara Rayon İcra Hakimiyyəti və rayon təhsil şöbəsinin nümayəndələri iştirak edib.

Yay məktəbində Astara məktəblərinin 6-9-cu sinif şagirdləri iştirak edib. Şagirdlər üçün "Xəyal et və yarat", "Sabahı düşün", "Gələcəyə addımla", "Mən uğurlu natiqəm", "Cahanı kəşf et" komanda oyunu və "Nə? Harada? Nə zaman?" intellektual yarışı keçirilib. Təlimlər və oyunlarda fəal iştirak edən şagirdlər sertifikatla təltif olunublar.

"Təhsil avtobusu - Nəsimi" yay məktəbi Bakı-Qusar-Astara-Cocuq Mərcanlı-Qazax-Şamaxı-Bakı marşrutu üzrə səyahət edəcək. İyulun 29-dək davam edəcək yay məktəbi çərçivəsində bu bölgələrdəki məktəblərin akademik göstəriciləri zəif və orta olan şagirdləri hər biri 1 gün olmaqla təlimçi və ekspertlər tərəfindən keçiriləcək peşə, natiqlik, incəsənət, fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edəcək.

"Təhsil avtobusu - Nəsimi" yay məktəbinin növbəti ünvanı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi olacaq.

# Astara və Masallı şəhərlərində vətəndaşlar qəbul ediləcək

**Astara, Lerik, Lənkəran və Masallı, Yardımlı, Cəlilabad rayon sakinlərinin nəzərinə!**

Təhsil naziri Ceyhun Bayramov 2 avqust 2019-cu il tarixində saat 10:00-da Astara şəhərindəki Heydər Əliyev Mərkəzində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Astara, Lerik və Lənkəran rayon sakinlərini qəbul edəcək. Qəbulda Astara, Lerik və Lənkəran rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Təhsil nazirinin müavini Firudin Qurbanov 2 avqust 2019-cu il tarixində saat 11:00-da Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində Masallı, Yardımlı və Cəlilabad rayon sakinlərini qəbul edəcək. Qəbulda Masallı, Yardımlı və Cəlilabad rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 24-30 iyul (saat 18:00-dək) 2019-cu il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının "Vətəndaşların qəbulu" bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

# Nazir müavini Tələbə Yay Məktəbinin iştirakçıları ilə görüşüb



İyulun 19-da Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan-Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyası çərçivəsində ölkəmizdə təşkil olunmuş Tələbə Yay Məktəbinin iştirakçıları ilə görüşüb.

Tədbirdə çıxış edən Firudin Qurbanov iki ölkə arasında yüksək səviyyəli siyasi və tarixi əlaqələrə toxunub. Nazir müavini "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq aparılan islahatlar və onun müsbət nəticələri barədə qonaqlara məlumat verib. Firudin Qurbanov həmçinin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında təhsil sahəsinin bir çox istiqamətləri üzrə geniş əməkdaşlığın mövcudluğunu vurğulayıb və birgə həyata keçirilən layihələrlə bağlı tədbir iştirakçılarını məlumatlandırıb.

Tədbir çərçivəsində Azərbaycanda ali təhsil sistemi və beynəlxalq əməkdaşlıq sahəsində vəziyyətlə bağlı məruzələr dinlənilib.

Qeyd edək ki, 15-21 iyul 2019-cu il tarixlərində keçirilən Tələbə Yay Məktəbi Sumqayıt Dövlət Universiteti tərəfindən təşkil olunub. Tələbə Yay Məktəbində Rusiya Federasiyası və yerli ali təhsil müəssisələrinin ümumilikdə 70-ə yaxın tələbəsi iştirak edir.

# AzMİU-nun tələbəsi Böyük İdeya yarışmasının qalibi olub

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Memarlıq fakültəsinin 2-ci kurs tələbəsi Sevən Məhəmmədpur British Council-ın Creative Spark layihəsi çərçivəsində həyata keçirdiyi Böyük İdeya startap yarışmasının Azərbaycan üzrə çempionu oldu. AzMİU-nun tələbəsi Böyük Britaniyaya səfər və 3000 ingilis funt-sterlinqi məbləğində pul mükafatı qazanıb. Yarışmada həmçinin, AzMİU-nu texnologiya kateqoriyasında təmsil edən universitetin Tikinti-iqtisad fakültəsinin 2-ci kurs tələbəsi Solmaz Fətullayeva və Memarlıq fakültəsinin dizayn ixtisası üzrə magistr tələbəsi Cavid Bağırzadə kateqoriya çempionları olublar.

Yarışmada iştirak və öz ideyalarını təqdim etmək üçün tələbələr AzMİU-nun İnnovativ Biznes İnkubatorun mərkəzində davamlı çalışıb və onlara hər cür dəstək verilib. Bu müddətdə AzMİU-nun Creative Spark üzrə Böyük Britaniya partnyoru London South Bank Universitetinin mütəxəssisi də ideyalarının təkmilləşdirilməsi və yarışmada yüksək performans göstərməsi istiqamətində tələbələrlə aktiv işləyib.

Məlumat üçün bildirək ki, Böyük İdeya yarışması hər ölkə üzrə 9 komanda olmaqla 7 ölkədə (Azərbaycan, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Ermənistan) keçirilib. Gənclərin startap ideyaları 3 kateqoriyada - kreativ, texnologiya, sosial sahələr üzrə müəyyənləşdirilib, onların arasından müvafiq olaraq kateqoriya çempionu, səsvermə çempionu və ölkə çempionu seçilib.

# Təhsildə əsas göstərici müəllim amilindən asılı olacaq



## Təhsil naziri yüksək bal toplayan müəllimliyə namizədlərlə görüşüb

**Ruhiyyə DAŞSALAHLI**

Müəllimlərin işə qəbulu imtahanlarının keçirildiyi Azərbaycan Texniki Universitetinin idman zalında yenə qələbəlikdir. 14 gündən bəri keçirilən imtahanların sonuncu seansı da başa çatmaq üzrədir. Bu dəqiqələrdə idman zalının böyük və kiçik zallarında imtahanların son seansı davam edir. Ancaq toplantı otağındakı həyəcan hər iki zaldan daha yüksəkdir, desək, yanılmarıq. Test imtahanları mərhələsinə start verilən ilk gündən bəri uğur qazanan namizədlər bir "dəyirmi masa" ətrafına toplaşıb. Hər birinin gözündən sevinc yağır. Di gəl, bu sevinc çöhrələrindəki həyəcanı gizlətməyə yetmir. Bu gün üçün xüsusi hazırlaşdıqları hiss olunan müəllimlər bir yandan imtahanlara qatılıb uğur qazanaraq peşəkarlığını və yüksək hazırlığını sübut etməyin sevincini, digər yandan isə gözlənilən görüşün həyəcanını yaşayır.

Aralarında müəllimliyə namizəd də var, ən az 3, hətta 30 il iş təcrübəsi olanlar da. Başqa sözlə desək, müəllim olmaq istəyən də, "Əməkdar müəllim" adını daşımağı hədəfləyən də var. Neçə illik pedaqoji təcrübəsinin olmasından asılı olmayaraq, hər biri üçün gözlənilən görüşün ötürdüyü həyəcan da, bəxş etdiyi qürur da eynidir. Onlar Təhsil naziri Ceyhun Bayramovla görüşəcəklər. Görüşdə, sadəcə Bakı şəhərində yaşayan və işləyən deyil, həm də bölgələrdəki məktəblərin müəllimləri iştirak edəcək.

### Müəllim olmaq istəyənlərin sayı çoxdursa...

Görüşə qatılacaq müəllim və müəllimliyə namizədlər test imtahanı mərhələsinə qatılan 48204 namizəd arasında fərqlənənlərdir. Onlardan 3 nəfər 60, 2 nəfər 59, 14 nəfər isə 58 bal toplayıb.

Hələ görüş başlamayıb, ancaq sakitlikdən istifadə edib xəyallarında uğuruna görə nazirin təbrikinə təşəkkür edənlər belə var.

Budur, görüş anı yaxınlaşır və müəllimlərin bütün diqqəti Təhsil naziri C.Bayramova yönəlir. Təhsil naziri sözə özü başlayır. O, müəllimlərin işə qəbul imtahanlarında qazandıqları uğurları xüsusi qeyd edir. İnanır ki, müəllimliyi seçən hər bir namizədin bu qərarı ölçülüb-biçilmiş, üzərində düşünülmüş qərardır.

C.Bayramov vurğulayır ki, bu il 55 minə yaxın namizədin qeydiyyatdan keçərək müəllim olmaq üçün müraciət etməsi prosesin obyektiv və şəffaf keçirilməsinə olan etimaddan xəbər verir. Bu gün müəllim olmaq istəyənlərin sayı çoxdursa, bunda dövlətin həyata keçirdiyi ardıcıl tədbirlərin rolu danılmazdır. Nazir deyir ki, təhsil sahəsində uğurlardan danışarkən ölçüləbilən qiymətləndirmə tədqiqatlarının nəticələrinə əsaslanılır. Buna nümunə olaraq son bir neçə il ərzində müsbət dinamikanın müşahidə olunduğu ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələrinə diqqət çəkir. Təkcə ötən il 500-dən çox bal toplayan 2090 nəfər məktəb məzununun təhsil alacağı ali məktəbi və ixtisası seçərkən müəllim hazırlayan təhsil müəssisələrinə üz tutduğunu bildirir: "Bəzi ixtisaslar üzrə hətta inanılmaz dəyişikliklər baş verib. 2016-cı ildə ibtidai sinif müəllimliyini 500-dən yuxarı bal toplayan cəmi bir neçə nəfər məzun seçmişdi. Ötən il bu rəqəm 235 nəfər idi. Eyni trendi biz işə qəbul imtahanlarında da gördük. Bir neçə ildir ki, vakansiyalar toplanır və həmin vakansiyalar üzrə müəllimlərin bir neçə mərhələdə işə qəbulu həyata keçirilir. 2016-cı illə 2018-ci il arasındakı müqayisə göstərir ki, müəllimlərin işə qəbulu imtahanlarına müraciət edənlərin sayı 300 faiz artıb".

Təhsil nazirinin sözlərinə görə, müəllimlərin işə qəbulu imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirildiyi ötən 7 il ərzində builki qədər müraciət edən olmayıb. Dövlət başçısı İlham Əliyevin tapşırıqlarında, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan vəzifələr sırasında prioritet olaraq müəllimlərin cəmiyyətdə nüfuzunun qaldırılması olduğunu vurğulayan nazir bu hədəfə nail olunduğunu deyir. Hər cür şəraiti olan məktəbdə peşə bacarığı yüksək olmayan müəllimlə heç bir şəraiti olmayan məktəbin peşəkar müəllimlərinin əldə etdiyi nəticələri müqayisə edir. O əmindir ki, yaxın onillikdə də təhsildə əsas göstəricilər müəllim amilindən asılı olacaq.

### Müəllim obrazı yaradanlar

Odur ki, yüksək bal toplayaraq müəllimlik peşəsinə yiyələnənlərin sevilən, sayılan müəllim obrazına duyulan tələbatı ödəyəcəklərinə inandığını vurğulayır: "Düzdür, bunun üçün bütün cəmiyyətin üzərinə məsuliyyət düşür. Müəllim obrazının yaradılması həm valideyndən, həm də mediadan asılıdır. Ancaq müəllimlərin üzərinə daha çox iş düşür. Müəllimlər sinifdə şagirdlə, onların valideynləri ilə düzgün işləməyi bacarmasa, əlbir olmasa, yüksək nəticə əldə etmək mümkün deyil. Unutmaq olmaz ki, müəllimin uşağın gələcəyində çox böyük rolu var. Əminəm ki, çox hallarda şagirdlər fənni müəlliminə görə sevir və seçir".

Azərbaycan məktəblərinin son illərdə simasının tamamilə dəyişdiyini vurğulayan nazir müəllimlərin də ehtiyac duyulan müəllim obrazının yaranmasında öz töhfəsini verəcəyinə inanmaq istəyir: "Siz öz nəticələrinizlə təsdiq etdiniz ki, heç də asan yolu seçmirsiniz. İnanıram ki, cəmiyyətdə möhkəmlənmiş müəllim obrazının formalaşmasında da öz töhfənizi verəcəksiniz".

### Yeni təsnifata uyğun kadr hazırlanacaq

Nazir təhsildə, müəllimlərin fəaliyyətində nəyi görmək istədiyini açıqladıqdan sonra müəllimliyə namizədlərin də istəklərini dinləyir. İmtahanlarla, məktəblə, müəllimin özü ilə bağlı rəy, təkliflər çoxdur. Müəllimliyə namizədlər ən müxtəlif məsələlərə toxunurlar. Ancaq ümumi mənzərədən belə görünür ki, onları ciddi şəkildə narahat edən məsələ yoxdur.

Təhsil naziri deyir ki, müəllimlərin peşəkar keyfiyyətlərinin müəyyənləşdirilməsi istiqamətində işə qəbul imtahanları əsas faktora çevriləcək. Bu imtahanların nəticələri əsasında pedaqoji kadr hazırlığı ilə məşğul olan ali məktəblərin nəticələri təhlil ediləcək, onların zəif cəhətlərini aradan qaldırmaq məqsədilə işlər aparılacaq.

Nazir pedaqoji kadr hazırlığında artıq tədbirlərə başlandığını da qeyd edib: "2019-cu ilin fevralında ali təhsilin bakalavriat pilləsinin yeni standartları müəyyənləşdirilib və növbəti ildən yeni təsnifata uyğun kadr hazırlanacaq. Yeni təsnifatda praktiki məşğələlərin, internatura tipli təcrübələrin miqdarı əhəmiyyətli şəkildə artıb. Düşünürük ki, pedaqoji kadrların hazırlıq prosesində dərsdə olmaları önəmlidir və bakalavrlar təhsil aldıqları 4 ilin birini tamamilə məktəbdə olmalıdır".

### Təkliflər dəyərləndirilir

Təhsil naziri görüşdə səslənən təkliflərin dəyərləndiriləcəyini, verilən qərarlarda nəzərə alınacağını vurğulayır: "Tez-tez belə görüşlərimiz olur. Məzunlarla, müəllimlərlə. Hər hansı prosesi keçib başa vurmuş insanlarla həmin proseslə bağlı düşüncələrini paylaşır, təkliflərini dinləyirik. Məsələn, məzunlarla görüşlərim olub. Hamısı olmasa da, bəzən elə fikirlər, təkliflər olub ki, biz həmin təklifləri verdiyimiz qərarlarda nəzərə almışıq. Odur ki, bu görüşdə də səslənən hər bir fikir, hər bir təklif bizim üçün önəmlidir".

Görüşün sonunda həyəcandan heç bir əlamət qalmayıb. İndi o çöhrələrdə, sadəcə maraqlı və səmimi keçən görüşün təəssüratları qalıb.

# Ən yüksək ad uğrunda

## 18881 namizəd növbəti mərhələyə keçdi

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### Nəticələri ləğv olunanlar

Bu il müəllimlərin işə qəbulu imtahanlarında 33 namizədin imtahan nəticəsi ləğv olunub. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Murad Camalzadənin sözlərinə görə, buna səbəb onların imtahan qaydalarını pozması olub. "Ən çox rast gəlinən qayda pozuntuları köçürməyə cəhd etmə, yanındakı namizəd ilə danışmaqdır. Eyni zamanda başqasının şəxsiyyət vəsiqəsi ilə imtahana daxil olmağa cəhd də olub və bunun qarşısı alınıb. Bəzi hallarda namizədlər tərəfindən imtahana telefon ilə deyil, hətta rabitə qurğusu ilə gəlmək cəhdləri olub", - deyə M.Camalzadə bildirib.

### Səhv suala görə müəllimə cəza kəsilmir

Builki imtahanlarda qayda pozan, sadəcə müəllimlər olmayıb. M.Camalzadə deyib ki, imtahanlar zamanı 19 ixtisas fənni, habelə metodika və məntiq üzrə ümumilikdə 5340 sualdan istifadə edilib. Müəllimlərin işə qəbulu imtahanlarında sualların yoxlanılması zamanı ekspertlər, ümumilikdə, Azərbaycan bölməsində 20, rus bölməsində 9 sualda texniki qüsur müəyyən ediblər. Həmin suallar ümumi sualların 0.54 faizini təşkil edib: "Texniki qüsur dedikdə, imtahan sessiyası zamanı həmin sualın məzmununda səhvin olması (15 sual), bir suala iki düzgün cavabın uyğun gəlməsi (5 sual), eyni sualın eyni imtahan sessiyasında təkrar verilməsi (1 sual) və digər (8 sual) hallar nəzərdə tutulur. İmtahan zamanı hər hansı namizəd tərəfindən bu suallara verilmiş cavab səhv və ya cavablandırılmamış kimi qeydə alınıbsa, həmin cavablar namizədin xeyrinə düz cavab kimi qeydə alınacaq və namizədin balının hesablanmasında nəzərə alınacaq".

İmtahan komissiyası bununla işini bitmiş saymayacaq. Texniki qüsuru olan sualların məzmunu açıqlanacaq və qüsur izah olunacaq. M.Camalzadə qeyd edib ki, yekun nəticələr bu gündən hər bir namizədin şəxsi səhifəsinə göndəriləcək. İyulun 27-dən başlayaraq namizədlər şəxsi səhifəsi üzərindən apelyasiya qaydasında müraciət edə bilər. Həmin müraciətlər iyulun 29-na qədər qeydiyyata alınacaq. Müraciətlərin nəticələri avqustun 6-na qədər şəxsi səhifəyə göndəriləcək: "Apelyasiya müraciətinin məqsədi imtahana aid məzmun və ya texniki məsələlərlə bağlı əsaslandırıla bilən tələbləri təqdim etmək, habelə imtahanın təşkili ilə bağlı rəy və təklifləri bildirməkdir. Apelyasiya müraciətlərinə müvafiq ekspert komissiyaları tərəfindən baxılacaq".

İyulun 26-da namizədlərin şəxsi səhifəsinə hər bir suala verdikləri düz və səhv cavabları əks etdirən cədvəl və texniki qüsuru olan suallara görə əlavə edilmiş bal nəzərə alınmaqla yekun nəticə göndəriləcək.

### 7000 yer uğrunda...

Test imtahanları başa çatdığından sırada vakansiya mərhələsidir. Avqustun 7-dən müsabiqənin vakansiya seçimi mərhələsi açıq elan ediləcək. Bu il həmin mərhələyə ilkin olaraq təxminən 7000 vakant iş yerinin çıxarılması gözlənilir. 7000 yer uğrunda mübarizəyə isə sadəcə builki imtahanlardan uğurla keçən 18881 namizəd yox, ötənilki imtahanlarda da keçərli nəticə göstərən, ancaq yerləşdirilməyən 2800 nəfər namizəd, o cümlədən 10 ildən artıq təhsil sistemində çalışıb, 3 ildən az müddətə işdən ayrılan 92 nəfər də qatıla biləcək. M.Camalzadə bildirib ki, hələlik həmin şəxslərdən neçə nəfərin növbəti mərhələyə qatılacağı dəqiqləşdirilməyib. Qeyd edək ki, ötən il əldə edilmiş nəticənin 2 il müddətində qüvvədə olduğu nəzərə alınaraq, həm ötən il, həm də bu il imtahanlarda iştirak edən namizədlər builki vakansiya seçimi mərhələsində hər bir fənn üzrə keçən il və ya bu il əldə etdiyi nəticələrdən birini seçməklə iştirak edə biləcəklər.

### Fərqli keçid balı

Bu mərhələdən kimlərin uğurla çıxa biləcəyinə gəlincə, keçid balı təhsil müəssisəsinin yerləşdiyi əraziyə görə fərqləndirilir. Həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi kənd məktəbləri ilə həvəsləndirmə tədbirlərinin tətbiq edilmədiyi şəhər, qəsəbə, rayon mərkəzi və mərkəzə yaxın kənd məktəbləri üçün fərqli keçid balı müəyyən edilib. Keçid balı namizədlərin yekun nəticələrinə əsasən nazirlik tərəfindən müəyyən edilir. Əvvəlki illərin təcrübəsi göstərir ki, həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi müəssisələr üzrə keçid balı 36 bal, həvəsləndirmə tədbirləri tətbiq edilməyən müəssisələr üzrə isə 48 bal təşkil edib. Builki keçid balı namizədlərin ümumi nəticələri təhlil edildikdən sonra məlum olacaq.

### Məktəbinizi düz seçin ki...

Təhsil Nazirliyi isə müəllimlərin işə qəbulu müsabiqəsindən keçərək vakansiya seçimi edəcək namizədləri bu mərhələdə daha diqqətli olmağa çağırır. Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva deyib ki, namizədlər işləmək istədikləri məktəbləri seçərkən diqqətli olmalıdırlar: "Namizədlər vakant yer seçimi ilə bağlı qərar verməzdən əvvəl fikirlərini dəqiqləşdirsinlər. Yaxşı olar ki, onlar seçdikləri məktəblər haqqında məlumatlı olsunlar. Nəzərə alsınlar ki, tanımadıqları məktəbi seçib, qəbul olunduqdan sonra isə ondan imtina etmələri digər namizədlərin həmin yerə qəbul olunmaq şansını azaldır. Qəbul olunanların imtina etdikləri yerlərə başqa namizədlər müddətli müqavilə ilə işə götürülürlər".



### Həm köməkçi, həm də nəzarətçidirlər

Artıq başa çatan müəllimlərin işə qəbulu imtahanlarında prosesin başından bəri ən vacib məqamlarından biri də könüllülərin peşəkar fəaliyyətidir. Qeyd edək ki, bu prosesə bütövlükdə 110 nəfərə yaxın könüllü cəlb olunub. Könüllülərə fəal iştirakına görə Təhsil nazirinin müavini M.Vəliyeva da təşəkkür edib.

Qeyd edək ki, könüllülər bu prosesdə həm köməkçi, həm də nəzarətçidirlər. Namizədlərin binada istiqamətləndirilməsi, yerləşdirilməsi, imtahan prosesinə nəzarət və yaranan bütün sualların cavablandırılması ilə bağlı məsuliyyət əsasən "Bir" könüllülərinin üzərinə düşüb. Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramının orta ixtisas təhsili müəssisələri üzrə koordinatoru Möhtərəm Ağayeva "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, 4 seans, hər seansda 840 nəfərin, gün ərzində 3200 nəfərin imtahan verdiyi böyük prosesdə könüllülərin qarşısına maraqlı faktlar da çıxır. Maraqlı faktların arasında könüllüləri təəccübləndirənləri də az olmayıb: "Bir dəfə arxasında könüllünün oturduğunu bilməyən namizədlərdən biri masanın arxasından digər namizədə cavabların əks olunduğu kağızı ötürərkən aşkarlandı. Həmin könüllümüz kağızı namizəddən alıb dərhal havaya qaldıraraq kameraların qeydə almasını təmin etmişdi. Nəticədə namizədlərin ikisi də imtahan prosesindən uzaqlaşdırıldı. Artıq əvvəlki illərə nisbətən qayda pozanlar azalıb. Çünki artıq hamı imtahanda güclü nəzarət olduğunu bilir".

### İmtahanlara ictimai nəzarət şəffaflığı artırır

Müəllimlərin imtahan prosesində, sadəcə könüllülər deyil, media, ictimaiyyətin ayrı-ayrı nümayəndələri də fəal iştirak edib. İmtahan prosesinə 4 dəfə mediatur təşkil edilib. Təhsil ekspertləri, millət vəkilləri, ali təhsil müəssisələrindən nümayəndələr, media rəhbərləri prosesi yaxından izləyib.

2019-cu ildə keçirilən müəllimlərin işə qəbulu imtahanları da qüsursuz, yüksək səviyyədə təşkili ilə yadda qaldı. İmtahan zallarına namizədlərin yerləşdirilməsi bu prosesdə həssas qrupdan olan namizədlərə xüsusi qayğı, imtahan binasının qarşısında təcili yardım və yanğınsöndürmə briqadalarının hazır gözləməsi namizədlərin sağlamlığına və rahatlığına yönələn tədbirlər olaraq hər kəs tərəfindən təqdirlə qarşılandı. Bu da bir daha təsdiq etdi ki, müəllimlərin işə qəbulu imtahanları hər il daha da təkmilləşir.

# "Psixologiya zirvəsi: problemlər, perspektivlər və yeni yanaşmalar"



İyulun 25-də "Müasir Azərbaycan psixoloqları" İctimai Birliyi və Psixologiya Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) dəstəyi ilə "Psixologiya zirvəsi: problemlər, perspektivlər və yeni yanaşmalar" mövzusunda ikigünlük beynəlxalq konfrans öz işinə başlayıb.

İki günlük konfransda çıxış edən AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı, "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyinin İdarə Heyətinin sədri Bəxtiyar Əliyev, ADPU-nun rektoru, professor Cəfər Cəfərov və Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov mövzunun aktuallığını vurğulayıblar. Bildirilib ki, yerli və xarici mütəxəssislərin iştirakı ilə keçirilən konfrans ölkəmizdə psixologiya elmi sahəsində atılan mühüm addımdır. Belə tədbirlər fikir mübadiləsinin aparılması və beynəlxalq təcrübənin öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Tədbirdə ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov, Respublika Narkoloji Mərkəzinin direktoru Araz Manuçehri Lalein, Psixologiya Elmi-Tədqiqat İnstitutunun direktoru Elnur Rüstəmov, professorlar Hasan Bacanlı, Mehmet Engin Deniz və digər çıxış edənlər psixologiya elminin nailiyyətlərindən bəhs ediblər.

Konfrans çərçivəsində ADPU ilə Psixologiya Elmi-Tədqiqat İnstitutu arasında elm və təhsil sahəsində əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu Cəfər Cəfərov və Bəxtiyar Əliyev imzalayıblar.

# "Məktəblinin dostu" layihəsi üzrə yeni əməkdaşlar seçilir

İyulun 25-də "Məktəblinin dostu" layihəsi üzrə keçirilən imtahanların müsahibə mərhələsinin başlanılması ilə bağlı tədbir keçirilib.

Millət vəkillərinin, təhsil ekspertlərinin, media qurumları rəhbərlərinin və KİV nümayəndələrinin iştirak etdikləri tədbiri Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov açaraq "Məktəblinin dostu" layihəsinin əhəmiyyətindən, təhsilin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirilib ki, layihənin əsas məramı müəllim və şagirdlər üçün təhlükəsiz mühitin yaradılması, ilk tibbi və psixoloji yardımın göstərilməsi, mütəmadi olaraq şagird, valideyn, müəllim, təlim-tərbiyə müəssisələrinin kollektivi və rəhbərliyi ilə maarifləndirmə, diaqnostik işlərin aparılmasıdır.

Sonra layihənin rəhbəri Rüstəm Ağayev çıxış edərək imtahanların keçirilməsində məqsədin 2019-2020-ci tədris ilindən əhatə dairəsi genişləndirilən "Məktəblinin dostu" layihəsinə əməkdaşların seçilməsi olduğunu söyləyib. Qeyd olunub ki, imtahanlarda iştirak üçün 724 gənc müraciət edib və onlardan 400-dən çoxu test mərhələsində uğur qazanıb. İmtahanların test mərhələsində namizədlərə 50 sual təqdim edilib. Onların əsasən, Azərbaycan tarixi, coğrafiyası, mədəniyyəti, məntiqi düşünmə qabiliyyəti sahələri üzrə bilikləri yoxlanılıb. Seçilmiş namizədlər müsahibə mərhələsində iştirak hüququ qazanıblar.

Qeyd olunub ki, müsahibə mərhələsində ictimai fəallığı ilə seçilən, könüllü kimi müxtəlif proqramlarda çalışan, xarici dil biliklərinə malik namizədlərə üstünlük veriləcək. Bu mərhələdən uğurla keçən namizədlər təlimlərə cəlb olunacaqlar. Təlimlərin sonunda qiymətləndirmənin nəticələrinə əsasən seçilmiş namizədlər "Məktəblinin dostu" olacaq.

Tədbirdə çıxış edənlər "Məktəblinin dostu"nun şagirdlərin davamiyyətində, məktəblilər arasında pis vərdişlərin aradan qaldırılmasında böyük rolu olacağına əminliklərini bildiriblər.

Sonra layihə üzrə imtahanların müsahibə mərhələsinə başlanılıb.

Qeyd edək ki, "Məktəblinin dostu" layihəsi Təhsil Nazirliyi ilə "ASAN xidmət"lə birgə həyata keçirilir. Layihə hazırda 35 məktəbdə fəaliyyət göstərir və yeni tədris ilindən etibarən layihənin əhatə etdiyi məktəblərin sayının 150-yə çatdırılması planlaşdırılır.

# Məktəbəhazırlıq ibtidai təhsilə keçidi asanlaşdırır

**Niyazi RƏHİMOV**

## Avqustun 15-dən məktəbəhazırlıq qruplarına sənəd qəbulu başlayacaq

Gələn aydan başlayaraq dövlət orta ümumi təhsil müəssisələrində təşkil olunan məktəbəhazırlıq qruplarına sənəd qəbuluna start veriləcək. Qeyd edək ki, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Naftalan şəhərlərində və Abşeron, Yevlax, Samux rayonlarında sənədlərin qəbulu elektron qaydada - *mektebeqebul.edu.az* saytı vasitəsilə həyata keçiriləcək. Digər dövlət ümumi təhsil müəssisələrində sənədlərin qəbuluna avqustun 15-dən başlanılacaq və sentyabrın sonuna qədər davam edəcək.

Qeyd edək ki, son illər Təhsil Nazirliyi tərəfindən həyata keçirilən ən uğurlu islahatlardan biri də məktəbəhazırlıq qruplarının təşkilidir. Beşyaşlılar üçün təşkil olunan məktəbəhazırlıq qrupları 2015-ci ildən başlayaraq ölkənin bütün regionlarında tətbiq olunur. Məktəbəhazırlıq qruplarının sayının artırılması prioritet istiqamətlərdən hesab edilir və ilbəil bu say artır.

Şəffaflığın təmin edilməsi məqsədilə 2017-ci ildən başlayaraq ilk dəfə Bakı şəhərində məktəbəhazırlıq qruplarına uşaqların qəbulu elektron qaydada həyata keçirilib. 2018-ci ildən isə bu qayda paytaxtla yanaşı, respublikamızın bir sıra bölgələrində də tətbiq olunur.

### Məqsəd beşyaşlıların məktəb mühitinə adaptasiya olunmasıdır

Məktəbəhazırlıq qruplarının yaradılmasında məqsəd 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq, əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq, ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etməkdən ibarətdir.

Xüsusilə qeyd edək ki, məktəbəhazırlıq təhsili ibtidai təhsilə keçidi asanlaşdırır və uşağın ibtidai təhsilə adaptasiya olunmasına müsbət təsir edir. Məktəbəhazırlıq təhsilinə cəlb olunmuş uşaqlar cəlb olunmayanlarla müqayisədə daha yüksək akademik göstəricilər əldə edir. Araşdırmalara əsasən, məktəbəhazırlığı keçən uşaqlar digərlərindən fərqli olaraq Ana dili və riyaziyyat imtahanlarında daha yaxşı nəticə göstərirlər. Bundan başqa, məktəbəhazırlıq təhsili uşaqların əqli, fiziki, sosial-emosional və nitq qabiliyyətini, eləcə də kommunikativ, oyun və digər bacarıqlarını inkişaf etdirir.



### Qruplarda təhsil dövlət hesabına həyata keçirilir

Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir. Bu qruplar dövlət vəsaiti hesabına müvafiq təlim və metodiki vəsaitlərlə təmin edilir.

Dövlət ümumi təhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında məşğələlər hər il oktyabrın 1-də başlanır və mayın 31-də başa çatır.

Dövlət ümumi təhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olmuş uşaqlar qəbul olunurlar.

### Məktəbəhazırlıq qruplarında təlimin təşkili

Məktəbəhazırlıq qruplarında beşyaşlılara həftədə 4 gün olmaqla, 12 məşğələ, yəni gün ərzində 3 məşğələ keçirilir ki, hər bir məşğələnin müddəti 30, məşğələlərarası fasilə isə 10 dəqiqədir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi nəzərdə tutulub.

Qruplarda ətraf aləmlə tanışlıq, savad təliminə hazırlıq və nitq inkişafı, bədii təfəkkürün inkişafı, məntiqi və riyazi təfəkkürün inkişafı, təsviri fəaliyyət, musiqi, fiziki mədəniyyət məşğələləri keçirilir və təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmur. Burada uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir. Məktəbəhazırlıq qruplarında davamiyyət müvafiq sinif jurnalında qeyd edilir.

Bu qruplara diaqnostik qiymətləndirmədə yüksək bal toplamış, səriştəli, əsasən 4-cü sinifdə tədris aparan müəllimlər seçilir. Bu da növbəti tədris ilində birinci sinfə gedəcək şagirdlərin adaptasiya olunması üçün körpü rolunu oynayır.

Məktəbəhazırlıq qruplarında işləyən müəllimlər öyrədici təlimlərə cəlb olunurlar.

Qeyd edək ki, bu qruplarda uşaqların say həddi qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün ən azı 10, şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün isə ən azı 15 olmalıdır. Bundan başqa, dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında uşaqların sayının 30 nəfərdən artıq olmasına da yol verilmir.



# Zərdabi niyə müəllim oldu?

## Və ya Salberqin Fin hekayəsi...

**Cəsarət VALEHOV,**
*fəlsəfə doktoru*

Biz adətən fin təhsilindən danışmağı xoşlayırıq. Niyə? Suallar çoxdu. Axundzadə məşhur komediyalarında funksional savadlılıqla mübarizə aparanda Fin kilsəsi oxuyub yazmağı bacarmayan finlinin evliliyini qadağan edirdi. Bunu Fin dərslərinin müəllifi Pasi Salberq deyir.

Və həmin tarixdən təxminən 50-60 il sonra Azərbaycanın mütəfəkkir insanı Zərdabi Rusiyada ali riyaziyyat təhsili alaraq Bakı Realnı Gimnaziyasının təbiət tarixi və riyaziyyat fənləri üzrə müəllimi olmuşdu. Zərdabinin müəllimliyi onun qəzet naşirliyindən heç də az əhəmiyyət kəsb etmirdi. Bu dövrdə çox "ilhamlandıran, özünə əminlik yaradan və yaradıcı olmağı düşündürən" müəllimdir. Həm də "dizayn təfəkkür" formalaşdıran müəllim olmalıdır.

**Yaxşı məktəb, yoxsa yaxşı müəllim?**

Yaxşı məktəbi yaxşı müəllim yaradır. Biz hələ müəllif (oxu-müəllim) məktəbindən danışmırıq. Əgər məktəbə yeni gələn müəllimi mühit motivasiya edirsə, daxilən müəllim keyfiyyətlərinə malikdirsə, onda "peşəkar sönmə" baş vermir. Və obrazlı desək, o, məktəbi, öyrənəni "alov"landırır.

**Haradan başlamalı?**

Medianın ən böyük müəllimi olan Zərdabinin deyimi olmasın, müəllimi asan yetişdirmək olmur.

**Məşhur ingilis təhsilşünası Maykl Barber deyir ki, hər bir təhsil sisteminin gücü onun müəlliminin gücünə bərabərdir. Bu ifadəni Bismarksayağı genişləndirsək, "hər bir millətin gücü onun müəlliminin gücünə bərabərdir". Bu gün daha çox iqtibaslar gətirdiyimiz almanı da, yaponu da tarixdə güclü edən onun müəllimi olub.**

həm də Qori məzunları Azərbaycanın bölgələrində müəllimliklə məşğul idilər. Elə həmin məzunlardan biri, böyük bəstəkar Üzeyir bəy həm Qarabağda, həm də Bayılda hesabdan dərs deyirdi.

Elə finlərin mənəvi atası Snelman da Finlandiyanı bucaq-bucaq gəzərək milləti üçün müəllimlik edirdi. Bu işi Azərbaycanda Zərdabi, Üzeyir bəylə yanaşı, Mirzə Cəlil, Sabir, Şaxtaxtlı, Ağaoğlu da edirdi. Onların mənəvi dühası ilə Cümhuriyyət quruldu, millət quruculuğu başladı.

Məşhur ingilis təhsilşünası Maykl Barber deyir ki, hər bir təhsil sisteminin gücü onun müəlliminin gücünə bərabərdir. Bu ifadəni Bismarksayağı genişləndirsək, "hər bir millətin gücü onun müəlliminin gücünə bərabərdir". Bu gün daha çox iqtibaslar gətirdiyimiz almanı da, yaponu da tarixdə güclü edən onun müəllimi olub.

Məsələn, 1870-1871-ci illərdə Fransa-Prusiya müharibəsində fransızların məğlubiyyətə uğrama səbəbini məşhur fransız mütəfəkkirləri Lui Paster, Ernest Renan, Emil Zolya almanların müəlliminin keyfiyyət fərqində görürdülər.

**Müəllim təkcə öyrədəndimi?**

Bu suala birmənalı cavab yoxdur. Ancaq həm də var. Məsələn, məşhur Azərbaycan müəllimi Azad Mirzəcanzadənin ifadəsi ilə desək, müəllim həm də öyrənəndir. Müasir təhsil tədqiqatlarına baxsaq, bunu təsdiq edə bilərik. İndi bilik öyrətmək üçün təkcə müəllimə ehtiyac yoxdur. Cibimizdə gəzdirdiyimiz "Google" müəllimdən və hətta hər kəsdən daha çox bilir. Bəs onda müəllim nə etməlidir? Yeni dövrün müəllimi məşhur təhsil viziyoneri Ken Robinsonun ifadəsi ilə desək, daha

Onu tam filtrdən keçirmək lazımdır. Əslində media bir çox hallarda tənqid etsə də, son illərin müəllim seçimi də ən azı buna hesablanıb. Biz kifayət qədər mürəkkəb gələcəyin müəllimini o qədər filtrdən keçirməliyik ki, "qeyri-müəyyən gələcəyi" daha müəyyən görə bilək. Sonuncu cümləni ifadə edərkən bir çox hallarda media başlıqlarına çevrilən cümlələr diqqətimi çəkdi: "Müəllim olmaq istəyənlərə çətin suallar verilib", "Namizədlər masada çarpaz əyləşiblər" və sair.

Müəllim Frensis Fukuyamanın ifadəsi ilə desək, "milli quruculuğu" ("nation-building") həyata keçirən peşə sahibləridir. Ən azı biz son iki həftədə bu işə uyğun gələn müəllimləri seçirik. İnanıram ki, seçə bilirik. Bir çox halda XXI əsrin müəlliminin seçimindən danışmıram. Çünki bu, kifayət qədər mürəkkəb məsələ kimi görünür. Hətta bir çox hallarda süni zəka bu işə alternativ olmaq istəyir. İddiaları isə zaman təsdiq edir.

...Ancaq müəllim həmişə müəllim olub. Bu, antik dövrdə Platonun da, Nyutonun da, elə ötən şənbə riyaziyyat müəllimliyi imtahanında 59 bal qazanan Familin timsalında da belədir. Və belə də olacaq...

**P.S. Sual - Niyə müəllim imtahanları kompüterlə aparılır, kağızla yox?**

**Cavab** - Onda niyə həyatımızı app-lar idarə edir. Gəzəndə addımımızı telefon ölçür, maşında yolumuzu naviqasiya göstərir, hətta "smart watch" ürək döyüntülərimizə nəzarət edir. Rəqəmsal gələcəyin müəllimini ən azı klavişlə test etmək vacibdir. Özü də cavabını anındaca biləndə. Elə deyilmi?

# Ömürboyu təhsil və liderlik



## UNEC təhsilimizə yeni innovasiyalar gətirir



⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Ömürboyu təhsilin son zamanlar təhsil sahəsində ən çox diqqət mərkəzində olan paradiqmalardan biri olduğu qeyd edilən konfransda davamlılıq, təhsilin iqtisadi aspektləri, sahibkarlıq, innovasiya və təhsil, ömürboyu təhsil layihələrinin, insan resurslarının idarə edilməsi, ömürboyu öyrənmə, təhsildə liderlik, təhsildə qloballaşma, təhsil menecmenti, təhsildə bərabərlik, ömürboyu təhsildə öyrənmə texnologiyaları və digər istiqamətlərdə məruzələr dinlənilib. Konfransda UNEC-in tədris və təlim texnologiyaları üzrə prorektoru, dosent Anar Rzayev ömürboyu təhsilin qloballaşan dünyada xüsusi önəm daşıdığına diqqət çəkərək təmsil etdiyi ali məktəbdə ömürboyu təhsilin reallaşdırılması üçün bütün imkanların yaradıldığını qeyd edib. Böyük Britaniyanin Uorvik (Warwick) Universitetinin professoru Malkom Hoare, Portuqaliyanın Koimbra Universitetinin professoru Karlos Sousa de Reis və İtaliyanın Padova Universitetinin professoru Mişel Biasutti isə iqtisadiyyat və təhsil arasındakı əlaqələr, təhsil liderliyi mövzularına toxunublar.

### Hədəf - Ömürboyu təhsil

Qeyd olunmalı mühüm gerçəklik odur ki, müasir reallıqlar dövründə ömürboyu təhsilin zəruriliyi artıq heç kimdə şübhə doğurmur. UNEC-in bu məsələyə xüsusi diqqətlə yanaşması bu istiqamətin getdikcə qlobal düzəndə xüsusi çəkisinin artması ilə izah olunr. Bu kontekstdə konfransın əsas məqsədi elm adamları, tədqiqatçılar, ali təhsil işçiləri, tələbələr və ali təhsillə əlaqədar olan müxtəlif sahələrin mütəxəssislərini bir araya gətirərək liderlik bacarıqları ilə bağlı tədqiqatların nəticələrinin başqa mütəxəssislərlə bölüşmək üçün mühit yaratmaqdır. Bu konfrans eyni zamanda təhsil, təlim, tədris, insan resursları və korporartiv mədəniyyət sahələrində meydana çıxan yenilikləri və innovasiyaları bölüşməyə imkan verir.

Qeyd edək ki, UNEC-in Sakarya Universiteti ilə ərsəyə gətirdiyi bu konfrans fasiləsiz təhsilin cəmiyyət həyatındakı rolunun araşdırılması sahəsində mütəxəssis və tədqiqatçılar üçün geniş əməkdaşlıq meydanı açır. Heç təsadüfi deyildir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Davos İqtisadi Forumu çərçivəsində elan etdiyi və 2019-cu ildə dünyada təhsil sahəsinin formalaşdırılmasının əsas trendlərinə həsr olunmuş hesabatında (Trends Shaping Education 2019) da ömürboyu təhsil gələcək illərin əsas meqatendensiyalarından hesab olunub. Son 45 ildə OECD ölkələrində orta insan ömrü 70-dən 80 yaşa qədər artıb. 65 və daha artıq yaşlıların isə ömrünün əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Yaşlı işçilər əmək bazarının artan qeyri-stabilliyi təhlükəsi ilə rastlaşacaq, yüksək texnologiyalara çıxış əldə etmək üçün keyfiyyətli yenidənhazırlanma və ixtisasartırma imkanlarından yararlanmalı olacaqlar. Bununla da ömürboyu təhsilin təmin olunması üzrə cari təkliflər ölkələrin əksəriyyətində güclənəcək. Bir çox ölkələrdə yaşlı insanlar mürəkkəb rəqəmsal informasiyanı idarə etmək üçün kifayət qədər bacarıqlara malik deyillər. Hökumətlər və işəgötürənlər buna görə də ömürboyu təhsilin təmin olunması üçün tələb edilən işlərlə ciddi məşğul olmalıdırlar.

OECD qeyd edir ki, insan ömrünün uzanmasına dair gözləntilər artır, əvvəlcədən proqnozlaşdırıla bilməyən əmək bazarı isə o deməkdir ki, insanların çoxu tez-tez yenidən hazırlanmaya ehtiyac duyurlar. Daha çox diqqət insanların ömürboyu təliminə ayrılmalıdır ki, onlar iş yerini dəyişə və daha gec yaşlarda təqaüdə çıxa bilsinlər.

### Ömürboyu təhsil: zərurət və reallıqlar

Məlumdur ki, sürətlə dəyişən texnologiyalar və iqtisadi dəyişikliklər şəraitində ölkənin gələcək inkişafını təmin edəcək insan kapitalının yetişdirilməsi mühüm vəzifədir. Məhz təhsil sistemi insan kapitalının formalaşdırılması və onun inkişafını təmin edir. Öz növbəsində, insan kapitalı ölkənin rəqabət qabiliyyətliliyinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla əlaqədar olaraq da müasir cəmiyyətdə insan kapitalının rolu durmadan artır. Tam əminliklə demək olar ki, yaxın illərdə dünya arenasında ölkənin rəqabət qabiliyyətliliyi, ilk növbədə, onun təhsil sisteminin rəqabətqabiliyyətliliyi ilə müəyyən olunacaq. Təhsil üçün potensial çağırışları müəyyən edən qlobal rəqabətin əsas dəyişiklikləri isə insan kapitalının kəmiyyət və keyfiyyəti, müxtəlif ictimai-iqtisadi çağırışlar qarşısında sosial davamlılığın dərəcəsi kimi faktorlarla xarakterizə olunur. Bu cür yanaşma isə ömürboyu təhsilin cəmiyyət həyatı üçün əhəmiyyətini bariz şəkildə ortaya qoyur. Ömürboyu təhsilə bu cür yanaşma Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən 2013-cü il oktyabrın 23-də imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda öz əksini tapmışdır: "Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir. İnsanın ömürboyu təhsil almaq tələbatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolunu yüksəldən amillərdən ən mühümüdür. Eyni zamanda, sürətli texnoloji tərəqqi bilik və bacarıqların müntəzəm yenilənməsini tələb edir. Bu isə yeni və daha münasib ixtisasa yiyələnməyə və səriştənin inkişafına tələbatı artırır".

Müasir dünyada rəqabətə davamlı olmaq çox mürəkkəb məsələdir. O, yüksək ixtisaslı kadrların hazırlığına hələ uşaq yaşlarından başlanmasını, onların karyera yolunun və peşəkar bacarıqlarının müəyyən olunmasını tələb edir ki, onlar sürətlə dəyişən şərtlərə uyğunlaşa və müvafiq olaraq xarici amillərə reaksiya verə bilsinlər. Məhz ömürboyu təhsilin təşkilinə artan tələbat da bu zərurətlə izah olunur. Dünya təhsil prosesi sürətlə dəyişməyə və biliklərin ötürülməsini sürətləndirməyə və onlara girişi sadələşdirməyə məhkumdr, buna görə də hazırda distant təhsil, onlayn-təhsil geniş yayılmışdır. Təhsil sistemlərində 3D-texnologiyaları tətbiq olunur, virtual reallıq kök salır. Bu səbəbdən də hazırda "ömürboyu təhsil" trendi daha çox aktuallıq kəsb etməyə başlayır. Əksər hallarda artıq insanlar təkcə bir sahədə deyil, müxtəlif sahələrdə öz səriştələrini inkişaf etdirir. Bu cür reallıq bizdən daim ömürboyu öyrənməni və yenidən ixtisaslaşmanı tələb edir. Bu gün ömürboyu təhsil həyati əhəmiyyət daşıyır, əgər siz həyatda uğurlu olmaq istəyirsinzsə, zamanın tələblərinə və real həyatın dəyişikliklərinə uyğun olmalısınız.

### Ömürboyu təhsilin iqtisadi aspekti

"V Ömürboyu təhsil və liderlik" konfransının mühüm müzakirə trendlərindən biri ömürboyu təhsilin iqtisadi aspekti ilə bağlıdır. Müasir çağırışlar dövründə rəqəmsal iqtisadiyyat əmək bazarını kökündən dəyişir: harada kompüter insanı əvəz edə bilər, onu əvəz edəcək. Özünütəhsil və inkişaf insanlar üçün yeganə çıxış yolu olacaq, digər tərəfdən, rəqəmsal texnologiyalar müəssisələr və biznesin inkişafı üçün yeni imkanlar açır. Bundan başqa, yaxın gələcəkdə peşələrin müntəzəm dəyişməsi norma olacaq və peşəkar bir sferada iştirak daha çox təlim hazırlığı tələb edəcək. Ömürboyu təhsil konsepsiyası hesab edir ki, insan həyatı təhsil (diplomun alınmasına qədər) və iş dövrünə bölünmür, öyrənmə insanın bütün ömrü boyu davam edən daimi bir prosesdir.

Ömürboyu təhsil konsepsiyası yalnız inkişaf etmiş dövlətlər üçün deyil, həm də keçid iqtisadiyyatlı ölkələr üçün böyük aktuallıq kəsb edir. Dəyişikliklərin miqyası və dinamikası təhsilə və təlimə tamamilə yeni yanaşmanı tələb edir. Bu mənada ömürboyu təhsilin investisiyası da mühüm əhəmiyyətə malikdir. Ömürboyu təhsilin investisiyasının əsasında dörd prinsip durur: bütün təhsilalanlar baza səriştələrinə malik olmalıdır; təhsilalanlar öz təhsillərinə görə məsuliyyət daşımalıdır; dövlət bərabər təhsil imkanlarını təmin etməlidir; ömürboyu təhsil sistemi təhsil və əmək bazarı, işçi qüvvəsi üçün səmərəli olmalıdır.

Ömürboyu təhsil sisteminin əsas prinsipi onun qabaqlayıcı xarakter daşımasıdır. Məhz bu təlim hər bir fərdə gələcəkdə lazım olacaq peşələrin zəruriliyini və tələb olunan bilikləri əldə etməyi proqnozlaşdırmağa imkan verir.

### Mühüm baza

Son 25-30 il ərzində dünya iqtisadiyyatının inkişafında əhəmiyyətli dəyişikliklər baş verib, nəticədə biliklər beynəlxalq rəqabətdə müvəffəqiyyətin əldə olunmasında əsas amilə çevrilib. İqtisadiyyatın intensiv surətdə koqnitivləşməsi təhsil qarşısında daha çox tələblər qoyur, hansılar ki, ənənəvi təhsil sistemi tamamilə təmin edə bilmir. Belə bir şəraitdə ömürboyu təhsilə keçid zərurəti yaranıb.

> ⇨ İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Davos İqtisadi Forumu çərçivəsində elan etdiyi və 2019-cu ildə dünyada təhsil sahəsinin formalaşdırılmasının əsas trendlərinə həsr olunmuş hesabatında (Trends Shaping Education 2019) da ömürboyu təhsil gələcək illərin əsas meqatendensiyalarından hesab olunub.
>
> ⇨ Ömürboyu təhsilin investisiyasının əsasında dörd prinsip durur: bütün təhsilalanlar baza səriştələrinə malik olmalıdır; təhsilalanlar öz təhsillərinə görə məsuliyyət daşımalıdır; dövlət bərabər təhsil imkanlarını təmin etməlidir; ömürboyu təhsil sistemi təhsil və əmək bazarı, işçi qüvvəsi üçün səmərəli olmalıdır.

Ömürboyu təhsilin konsepsiyasına əsasən ali məktəb məzunları bilik əldə etməyi, onu tətbiq etməyi öyrənmək, həmçinin peşəkar fəaliyyətdə onlara lazım olan bilikləri və bacarıqları yeniləmək üçün dövri olaraq təhsil sisteminə (əsasən ali təhsil sisteminə) qayıdacaq. Bilik və bacarıqları fasiləsiz olaraq yeniləmək qabiliyyəti iqtisadiyyatın əsas inkişaf istiqamətlərindən və xüsusiyyətlərindən asılıdır. Buna görə də bir sıra ölkələr bu sahədə inkişafın strateji istiqamətlərini işləyib hazırlayır və tətbiq edirlər. Sakarya Universitetinin professoru Osman Titrek "V Ömürboyu təhsil və liderlik" konfransının mühüm əhəmiyyətini belə qiymətləndirir. "Daimi olmaq qabiliyyəti kimi müəyyən edilən sabitliyə ekoloji, iqtisadi və sosial sahələrdə çox müxtəlif mövzulardan yanaşmaq olar. Buna görə iddia etmək olar ki, sabitlik müasir dünyanın tələblərini əhatə edən əhəmiyyətli termindir. Bizim dövrümüzdə həyat fəaliyyətinin təmin olunmasında əsas vəzifə təhsil və liderlikdir. Təhsil insanların öz həyatlarını dəstəkləməsini təmin və insanın bütün həyatını əhatə edir. Buna görə də "beşikdən məzara kimi öyrənmə" kimi müəyyən olunan ömürboyu təhsil və davamlılıq bir-biri ilə sıx bağlıdır. Liderlik bir tərəfdən, insanları müəyyən hədəf ətrafında birləşdirir. Bu kontekstdə liderlik insanları yönəldir və onların həyatını dəstəkləyir. Buna görə iddia etmək olar ki, bütün müxtəlif sahələrdə liderlik sabitliklə bağlı ola bilər".

Yeri gəlmişkən, professor Titrek UNEC-in ev sahibliyi etdiyi konfransın əhəmiyyətini yüksək qiymətləndirib: "Bakı akademik konqresin keçirilməsi üçün xüsusi yerdir və "ICLEL 2019" bilik bazasının yenilənməsi, ömürboyu təhsil və liderlik sahəsində innovasiyaların öyrənilməsi üçün çox gözəl forum oldu".

### UNEC müasir təhsil mühiti yaradır

"V Ömürboyu təhsil və liderlik" mövzusunda tədbirlərin sistemli xarakter alması onu göstərir ki, UNEC hazırda müasir təhsil mühitinin yaradılması işini davam etdirməklə və peşəkar professor-müəllim heyətinin dəstəyi ilə ixtisas biliklərinin daha da təkmilləşdirilməsi, rəqabət potensialının hərtərəfli inkişaf etdirilməsi üçün öz səylərini səfərbər edib. Mühüm istiqamətlərdən biri ömürboyu təhsilin elmi aspektlərinin işlənib hazırlanması və bu sahədə qlobal çağırışlara cavab verən mühüm elmi tədqiqat işlərinin aparılması, dünyanın nüfuzlu universitetlərindən iqtisadçı alimlərin iştirakı ilə simpoziumların, beynəlxalq konfransların keçirilməsidir.

Bu, həm də UNEC-in tədqiqat yönümlü ali məktəb statusuna cavab verir. Bu məqsədlə UNEC-də Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin (BMDM) təşkilatçılığı və "Ömürboyu təhsil və liderlik" beynəlxalq konfransının (ICLEL) dəstəyi ilə iqtisadiyyat və idarəetmə ixtisaslarında təhsil alan həm yerli, həm də xarici ölkələrdə təhsil alan gəncləri bir araya gətirərək multidisiplinar tədqiqatların inkişafına töhfələr vermək, magistr tədqiqatlarının nəticələrini bölüşmək və fikir mübadiləsi aparmaq, eyni zamanda tədqiqatların keyfiyyətinin artırılması məqsədi ilə elmi konfransların təşkil edilməsi nəzərdə tutulur.

### Yeni hədəflər

UNEC-in inkişaf strategiyasında da qeyd olunduğu kimi, ali məktəb beynəlxalq sahədə nüfuzunu genişləndirmək üçün ciddi perspektiv planlar üzərində işləyir. UNEC-in ev sahibliyi etdiyi "Ömürboyu təhsil və liderlik" konfransı da ölkəmizdə ilk ixtisaslaşmış beynəlxalq elmi konfransdır və davamlı şəkildə təşkil olunması planlaşdırılır. İlk ilində dünyanın 21 müxtəlif ölkəsindən 31 tədqiqatçının iştirak etdiyi konfransda bu sayın növbəti illərdə 50-dən çox olması əsas hədəflərdəndir. Tam əminliklə demək olar ki, bu tədbir ölkəmizdə beynəlxalq standartlara cavab verən ixtisaslaşmış konfransların təşkili ənənəsini formalaşdıracaq və bu da özlüyündə Azərbaycan elminə və iqtisadiyyatına töhfələr verəcək tədqiqat platformalarının yaradılmasına istiqamət verəcək.

Məlumdur ki, hər hansı ali təhsil müəssisəsinin akademik fəaliyyətində "Web of Science" və "Scopus" elmi bazalarında dərc olunmuş məqalələri həlledici rol oynayır. UNEC-də bu aspektə diqqət güclüdür. Ali məktəb "Web of Science" və "Scopus"da olan konfransların UNEC-də keçirilməsini təmin etməkdə israrlıdır. Bu , "V Ömürboyu təhsil və liderlik" konfransının materiallarına da aiddir. Konfransda çıxış edən yerli və əcnəbi alimlərin təqdim etdiyi 350-dək məqalə elm komitəsi tərəfindən təsdiqlənib. Konfrans materialları "Thomson Reuters" və "Web of Science" bazasında yer alan SSCI indeksli "Sustainability" jurnalında dərc olunması üçün seçilib. Konfrans həm də ESCI və "Scopus" indekslərində yer alan jurnallarla əməkdaşlıq edir. Bu isə UNEC alimlərinin dünyanın elmi bazalarında mövqeyini gücləndirən faktorlardandır.

Qeyd edək ki, aparıcı tədqiqat universitetinə çevrilmək istiqamətində UNEC-in hədəfləri dünya təcrübəsinə uyğun magistratura və doktorantura təhsili vermək, yüksək reytinq qazanmış "beyin mərkəzi" yaratmaq, sifariş və qrantlar hesabına tədqiqat layihələri reallaşdırmaq, "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə məqalələrin sayını artırmaq və həmin bazalara daxil olan elmi jurnallara sahib olmaqdır.

Digər tərəfdən, UNEC-in sosial xidmətlərdə aparıcı universitet statusu almaq istiqamətində hədəflərindən biri milli səviyyəli sosial məsuliyyətlilik layihələri reallaşdırmaq, bilik və təcrübənin cəmiyyətə transfer mexanizmlərini, tələbələrin sosial şəraitini, məzunlarla əlaqəni təkmilləşdirməklə yanaşı, həm də ömürboyu təhsil proqramları üzrə xidmət göstərməkdir.

Hər bir ölkənin milli təhsil sistemində onun sosial-iqtisadi və mədəni-mənəvi inkişafı səviyyəsinə uyğun, yerli mentalitetə və dəyərlər sisteminə əsaslanan kurikulumun hazırlanması, müvafiq ümumi və xüsusi metodikalardan istifadə olunması vacib hesab edilir. Kurikulumların hazırlanması ideyası həm də müstəqillik illərində ölkəmizdə təhsil sahəsində aparılan araşdırmaların nəticəsi kimi meydana çıxıb. Ötən əsrin 90-cı illərinin sonunda beynəlxalq və milli səviyyədə ekspert və məsləhətçilərin araşdırmaları yeni qurulan Azərbaycan cəmiyyətinin tələbləri əsasında təhsil sisteminin yenidən yaradılmasını zəruri bir tələbat kimi qarşıya qoyub. Ötən dövrün təcrübəsini kütləvi halda mənimsəyən çoxsaylı təhsil işçilərinin günümüzün aktual problemləri ilə ayaqlaşması və ya onu mənimsəyə bilməsi mümkün olacaqdımı? Müəllim və şagirdləri, ümumilikdə təhsil sisteminin inkişafını XXI əsrdə nə gözləyirdi? Təhsil sistemi hansı istiqamətdə qurulmalı idi? Bu suallarla bağlı araşdırmaların nəticəsi olaraq yeni təhsil islahatı - kurikulumun həyata keçirilməsi məqsədəuyğun hesab edilib.

# Metodik təcrübənin ünvanı

## Tarix müəlliminin yeni yanaşmalarından bəhs edən kitab

**Həsənəli EYVAZLI,**
*Naxçıvan Müəllimlər İnstitutunun dosenti*

Ötən dövrdə Azərbaycan Respublikasının digər bölgələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında çalışan ümumtəhsil məktəblərinin müəllimləri də islahatın tələbləri istiqamətində axtarışlarında dəyərli təcrübə qazanıblar. Yeni metodikaya uyğun səmərəli təlim üsullarının öyrənilib ümumiləşdirilməsi və yayılması isə təhsil sisteminin yeniləşdirilməsində önəmli rol oynayıb. Belə qabaqcıl və təşəbbüskar müəllimlərimizdən biri də Naxçıvan MR-in Əməkdar müəllimi, ömrünün 32 ilini pedaqoji sahəyə həsr etmiş tarixçi pedaqoq İmmi Hüseynovadır. İmmi müəllimi digərlərindən fərqləndirən ən mühüm cəhət qazandığı uğurları əks etdirən metodik yenilikləri peşə yoldaşları ilə bölüşməsi və yeni uğurlara can atmasıdır. Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi Tamara Baxşəliyeva İmmi müəllimin qabaqcıl iş təcrübəsini hərtərəfli araşdırıb və kitab şəklində pedaqoji ictimaiyyətə təqdim edib.

“Qabaqcıl müəllimlərimiz: İmmi Hüseynova” adlı həmin kitabı vərəqlədikcə ömrünü şagirdlərinin yurdsevər vətəndaş, yetkin şəxsiyyət kimi formalaşmasına həsr edən bir müəllimin pedaqoji aləmdəki axtarışları və səmərəli təlim üsulları göz önündə canlanır. Bu nəşr təhsil islahatının uğurla gerçəkləşdirilməsi örnəyi kimi dəyərli metodik vəsait sayılmağa layiqdir. Burada bir müəllimin həyat amalına çevrilən dərs prosesinin bütün incəlikləri öz əksini tapıb.

Kitabda qeyd edildiyi kimi, aydın düşüncə tərzi, güclü məntiqi və yaddaşı ilə seçilən İmmi müəllim hələ 1981-ci ildə Bakıdakı 220 nömrəli məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin tarix fakültəsinə müsabiqədənkənar imtahan verərək əla qiymətlə daxil olub. Bu ali məktəbi də yüksək qiymətlərlə bitirən gənc tarixçi Bakı şəhərindəki 1 nömrəli respublika internat məktəbində əmək fəaliyyətinə başlayıb. İmmi Hüseynova 2000-ci ildə ailə vəziyyəti ilə əlaqədar Naxçıvan şəhərindəki akademik M.C.Cəfərov adına 14 nömrəli tam orta məktəbə dəyişilib və pedaqoji fəaliyyətinin sonrakı illərini muxtar respublikada təhsil həyatı ilə bağlayıb.

İ.Hüseynova sonralar Naxçıvan Dövlət Universitetində və Müəllimlər İnstitutunda da dərs deyib, şəhərdəki V.Zeynalov adına rus dili təmayüllü 3 nömrəli tam orta məktəbdə tarix dərslərini rus dilində tədris etməyə başlayıb. Təcrübəli tarix müəllimi təkcə dərs deməklə kifayətlənməyib, tədris prosesində təhsil islahatının qarşıya qoyduğu tələblərə uyğun səmərəli təlim mühiti yaratmağa da çalışıb. Kurikulumla bağlı mətbuat səhifələrində tez-tez elmi-metodik mövzularla çıxış etməsi, qazandığı təcrübəni həmkarları ilə bölüşməsi İmmi müəllimə işlədiyi kollektivlərdə və Naxçıvanın pedaqoji mühitində nüfuz və hörmət qazandırıb. Onun hər bir uğurunu həmkarları diqqətlə izləyir, ondan öyrənməyə çalışırlar.

Belə müəllimlərin səylərinin nəticəsi idi ki, 2015-ci ildə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbi “İlin məktəbi” adına layiq görüldü. İmmi müəllim həmişə fəxrlə bildirir: “Mən çox sevinirəm ki, məktəbimizin qazandığı uğurlarda, xüsusən “İlin məktəbi” adını almasında mənim də payım var. Müstəqil, gənc dövlətin tarixini olduğu kimi, tarixi araşdırmalar aparmaqla tədris etmək olduqca gərəkli və şərəfli bir işdir”.

İmmi Hüseynovanın qabaqcıl iş təcrübəsinə həsr olunan bu kitab 11 bölmədən ibarətdir. Tarixçi pedaqoqun “Tarix dərslərində İKT-dən istifadə”, “Tarix dərslərində portfolio sistemi,” “Tarix dərslərində fənlərarası əlaqənin əhəmiyyəti”, “Yeni pedaqoji texnologiyaların tətbiqi”, “Azərbaycan tarixi fənnindən layihə dərsi”, “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması” mövzularında apardığı dərslərdən, “Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu?”, “İntibah mədəniyyəti” mövzularında “açıq dərs”lərindən bəhs edən bölmələrdə onun ümumi bilik səviyyəsindən və çoxillik təlim məharətindən qaynaqlanan pedaqoji təcrübə incələnib və ümumiləşdirilib. “Tarixi şəxsiyyətlərin tanıdılmasında tarix dərslərinin əhəmiyyəti”, “Muzeylərdə keçirilən “açıq dərs”lərin təlim-tərbiyə prosesində əhəmiyyəti” bölmələrində İmmi müəllimin bu mövzuların tədrisinə yüksək milli-mənəvi meyarlarla yanaşması əksini tapıb. “Həmkarlarının İmmi müəllim haqqında rəyləri” bölməsində verilmiş mülahizələr də qabaqcıl müəllimin pedaqoji sahədə qazandığı uğurların çevrəsini tamamlayıb.

Yuxarıda göstərilən hər bölmə üzrə İmmi Hüseynovanın tarix dərslərində istifadə etdiyi istiqamətlərdən və problemlərin qoyuluşundan ətraflı bəhs edilib. Məsələn, Tamara Baxşəliyeva kitabda göstərir ki, İmmi müəllimin mühüm təcrübələrindən biri “Portfolio” hesabatlar və nailiyyətlər portfelidir. Onun vasitəsi ilə müəllim şagirdin müəyyən şəraitdə və təhsil aldığı dövr ərzində əldə etdirdiyi fərdi nailiyyətlərin qeydə alınmasını, toplanmasını və qiymətləndirilməsini həyata keçirmək üçün şərait yaradır. Portfolionun əhəmiyyətli cəhəti ondadır ki, o, şagirddə özünüqiymətləndirmə bacarığının artmasına xidmət edir və şagirdin fərdi xüsusiyyətlərini əks etdirir. Müəllif İmmi Hüseynovanın “Sənədlər portfoliosu”, “İşlər portfeli”, “Rəylər portfeli”-nin də rolunu və önəmini yığcam şəkildə şərh edib.

Yeni təhsil islahatının qarşıya qoyduğu mühüm istiqamətlərdən biri də fənlərarası əlaqənin yaradılmasıdır. Kitabın bu məsələdən bəhs edən bölməsində verilmiş “Qədim Misirdə mədəniyyət” və “Finikiya” mövzularının fənlərarası əlaqə istiqamətində İmmi Hüseynovanın təcrübəsinin təhlili də tarix müəllimləri üçün gərəklidir.

Kitabın “Yeni pedaqoji texnologiyaların tətbiqi” bölməsində İKT-nin şagirdlərin tədqiqatçılıq bacarığını inkişaf etdirməsindən geniş söhbət açılır. Göstərilir ki, fəal təlim dərsin düzgün planlaşdırılmasından başlayır. Dərsin əhəmiyyəti təkcə onun məzmunu ilə deyil, həm də forması ilə şərtlənir. Dərs o zaman səmərəli olur ki, şagirdlərdə maraq, kəskin reaksiya doğursun. Bu baxımdan kitabda nümunə dərsləri olaraq “Azərbaycan tarixi” fənnindən layihə dərslərinə də yer verilib.

İmmi müəllimin çoxillik pedaqoji fəaliyyətinin və zəngin təcrübəsinin bütün istiqamətlərini əhatə etmək bir yazıda imkan xaricindədir. Təkcə onu demək kifayətdir ki, ömrünü uşaqların təlim-tərbiyəsinə həsr edən hər bir müəllim xoşbəxtdir. İmmi Hüseynova da məhz belə müəllimlərdəndir.

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6284, **Sifariş** 2482

**Məsul növbətçi:** N.Rəhimov

# “EYOF Bakı 2019”da 7 medal qazanılıb




XV Avropa Gənclər Yay Olimpiya Festivalı çərçivəsində Heydər Əliyev adına İdman Sarayında keçirilən güləş yarışlarında Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin yetirmələri milli komandanın tərkibində yüksək nəticə göstərib.

Yarışlarda “Təhsil” Respublika İdman Mərkəzinin Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Murad Haqverdiyev və Abşeron rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Kənan Heybətov sərbəst güləş, mərkəzin 5 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Fərid Sadıxlı yunan-Roma güləşi üzrə qızıl, qadın güləşçilərdən Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi Gültəkin Şirinova, Abşeron rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirmələri Mərziyə Sadıqova və Elnurə Məmmədova isə gümüş medal qazanıb.

Cüdo idman növü üzrə keçirilən yarışlarda Bakı şəhəri 1 nömrəli idman liseyinin yetirməsi Turan Bayramov qızıl medal əldə edib.

Ümumilikdə festivalda 50-yə yaxın Avropa ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti iştirak edir. Yarışlar bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş olmaqla 10 idman növü üzrə 12 yarış məkanında keçirilir.

Yarışlara iyulun 27-də yekun vurulacaq.

# Etibarsız sayılır

**Yevlax rayon** Gülöyşə kənd tam orta məktəbini 2017-ci ildə bitirmiş Əskərov Kamran Hüseyn oğluna verilmiş E-071797 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta məktəbin VIII sinfini 1990-cı ildə bitirmiş Məmmədova Raifə Əli qızına verilmiş A-633728 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 1998-ci ildə Hüseynov Fuad Ağamusa oğluna verilmiş A-019107 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ləkçıplaq kənd 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Əhmədova İlahə Bahadur qızına verilmiş A-257099 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 309 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Abbasov Ayxan İlqar oğluna verilmiş B-681457 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əkbərov Elman Mamed oğluna verilmiş B-203484 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 285 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Hüseynov Kamil Vüqar oğluna verilmiş E-014738 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Yalavac kənd tam orta məktəbini 2012-ci ildə bitirmiş Cəbrayılova Aytən Yaqub qızına verilmiş A-122617 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 6 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş İmamquliyeva Türkanə Rüstəm qızına verilmiş B-125800 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** C.Rüstəmov adına şəhər tam orta məktəbini 2007-ci ildə bitirmiş Qasımova Günay Yusif qızına verilmiş B-413677 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Q.Mirzəmmədov adına Sərxan tam orta məktəbini 2005-ci ildə bitirmiş Paşayeva Gülnarə Əziz qızına verilmiş B-177252 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Morul tam orta məktəbini 1991-ci ildə bitirmiş Sadıqov Arzuman Sabir oğluna verilmiş 080786 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şəmkir kənd tam orta məktəbini 1997-ci ildə bitirmiş İsmayılov Kamil Ənsər oğluna verilmiş A-207177 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** M.Aranlı adına 11 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məhərrəmov Məhərrəm Akif oğluna verilmiş B-208217 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2011-ci ildə Əliyeva Nərgiz Rüfət qızına verilmiş AA-004939 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 165 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Alışova Şahnisə Hafiz qızına verilmiş B-286075 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 266 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Fərzəliyev Elmar Məmməd oğluna verilmiş A-111902 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Tibb Texnikumu** tərəfindən 2008-ci ildə Rəfiyev İlkin Təyyar oğluna verilmiş BB-080605 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Quşqara kənd tam orta məktəbinin VIII sinfini 1984-cü ildə bitirmiş Axundova Məhəbbət Çingiz qızına verilmiş A-457966 nömrəli ümumu orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü liseyi** 2007-ci ildə bitirmiş Cəlilov Taryel Əlinazim oğluna verilmiş B-437433 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 159 nömrəli tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Hüseynov Əhməd Nazim oğluna verilmiş A-494452 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 1993-cü ildə Atakişiyeva Mənzurə Əbülfəz qızına verilmiş PT-I-120697 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası** tərəfindən 1996-cı ildə Sabayev Andrey Yuryeviçə verilmiş AB-I-034306 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universitetinin Məktəb-Lisey Kompleksini** 2016-cı ildə bitirmiş Axundzadə Vaqif Vasif oğluna verilmiş A-521456 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 232 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Zeynallı Adilə Zeynal qızına verilmiş E-208333 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Özəl Universiteti** (indiki Naxçıvan Universiteti) tərəfindən 1998-ci ildə Əsgərova Ülviyyə Kamil qızına verilmiş A-023173 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2011-ci ildə Sanılı Ülkər Aydın qızına verilmiş BB-I-019206 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2007-ci ildə Həziyeva (Qarayeva) Vüsalə Yaşar qızına verilmiş BB-II-060575 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 219 nömrəli evdə tam orta məktəbi 2005-ci ildə bitirmiş Quliyeva Aysel Həmid qızına verilmiş B-202420 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Xəzər rayonu R.M.Sadıqov adına 136 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədova Aysel Zeynalabdin qızına verilmiş A-406192 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Günəşli kənd ümumi orta məktəbinin IX sinfini 2015-ci ildə bitirmiş İlyasov Qurban İlimdar oğluna verilmiş A-584209 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2001-ci ildə Cabbarov Elxan Şirin oğluna verilmiş A-057761 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1988-ci ildə Şirinov Nazim Fərrux oğluna verilmiş PB-039702 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Cəlalzadə Cəlal Cavad oğluna verilmiş A-519213 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Məmmədağalı kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Səmədov Hakim Bağır oğluna verilmiş A-424645 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Vəndam qəsəbə 2 nömrəli ümumi tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Paşayev Elxan Elnur oğluna verilmiş C-200199 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Rufiyev Ağadədə Yaşar oğluna verilmiş A-429866 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 14 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əliyev İsaq Məmmədrəhim oğluna verilmiş B-717005 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 96 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəsibova Rita Süleyman qızına verilmiş B-329932 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# Yeni nəsil əsilZadələr



## Yaxud Z-ləri anlamaq üçün nə etməliyik?

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Texnologiyalardan baş çıxarırlar, yenilikləri və innovasiyaları təqib edirlər. Onlar üçün yeni proqramı əxz etmək və texnikanı öyrənmək xüsusi çətinlik törətmir. Ancaq bir məqamı da unutmamalıyıq: bu gənclər öz dünyalarına qapanmış deyillər. Ünsiyyəti sevirlər, videobağlantı gündəlik ünsiyyətlərinin başlıca elementidir. Onlardan fərqli olaraq ata və anaları, əgər unutmamısınızsa, SMS-lərə və messencerlərə üstünlük verirdilər. Daha doğrusu, olanımız bunlar idi.

Z-lər eyni anda bir neçə işlə məşğul ola bilərlər. Həm televizora baxır, həm kompüterdə işləyir, həm də smartfonda yazışırlar. Bunun işin görülməsinə kömək etdiyini və ya mane olduğunu biz gələcəkdə biləcəyik. Hələliksə o məlumdur ki, yeni nəslin nümayəndələrinin 11%-i diqqət çatışmazlığı və hiperaktivlik sindromunun daşıyıcılarıdır. Vəziyyətin çətinliyi ondan ibarətdir ki, Z-ləri iş vaxtı sosial şəbəkələrdən ayırmaq mümkün deyil, bu, məhsuldarlığın artımına deyil, əksinə, azalmasına səbəb olacaq. Üstəlik, onlar bunu şəxsi azadlıqlarının məhdudlaşdırılması kimi qəbul edəcəklər.

### Sosial məsuliyyət

Rekruterlər yeni nəsli işə cəlb etməkdə ciddi çətinliklərlə üzləşirlər. Problem budur ki, gənclər xırda və orta biznes, frilanserə etibar etmirlər. Onlar üçün hədəf dövlət orqanları və iri korporasiyalardır. “Zetlər”ə görə, hökumət strukturları və iri şirkətlərdə həm daha çox pul qazanmaq olar, həm də tutaq ki, beş ildən sonra harada olacağını rahat proqnozlaşdırmaq mümkündür. Gənclər hesab edirlər ki, gedib orta biznesdə çalışıb, tez-tez əlavə təhsil və təkmilləşməyə baş vurmaqdansa, bunları elə öz şirkətimizi yaradıb edə bilərik.

Z-lərin iri şirkətlərdə işləmək istəkləri məsələnin yarısıdır. Şirkətlərin onları işə cəlb etmələrində də çətinliklər yaranır. Səbəb də budur ki, “zetlər” üçün şirkətin və ya işin səs-küylü adı heç bir əhəmiyyət daşımır. Onlar üçün vacib olanı budur: biznesin ictimai rolu! Onlar elə şirkətləri seçirlər ki, sosial baxımdan məsuliyyətli olsunlar: yeni iş yerləri yaradan, personalın qayğısına qalan, ətraf mühitin dərdini çəkən və bir sözlə, dünyaya müsbət, pozitiv təsir edə bilən. Əgər işəgötürən özünün sosial yönümlü siyasəti ilə öyünə bilmirsə, “zetlər” üçün ən son sırada qərarlaşacaq.

Hər beş Z-dən ikisi işi karyera saytları deyil, dostları və ya ailələri vasitəsilə axtarırlar. Təklif edilən işin cəlbedici görünməsi üçün “zetlər”in nəyə ehtiyacı olduğunu anlamaq lazımdır. Söhbət ilk növbədə pul və çeviklikdən gedir. Onlar çox pul qazanmaq istəyirlər. Yox, düşünməyin ki, məsələ pulgirlikdədir. Z-lər sadəcə olaraq nəticə göstərib pul qazanmaq istəyirlər. Nəticəni də göstərəndə gərək ən yüksəyi ola. Yüksək nəticəyə nail olmaq isə öz növbəsində onların anlamında biz düşündüyümüz kimi gecə-gündüz işləmək anlamına gəlmir. Yeni nəsil işləməyi də bacarır, əylənməyi də, asudə vaxtının təşkilini də.

### Etimad, diqqət və motivasiya

Rekruterlər Z-ləri işə götürüb dərhal ən ağır tapşırıqlar verməyi məsləhət görmürlər. Z-lər öyrənmək istəyirlər və təcrübəli işçiyə təhkim olunsalar, işi tez bir zamanda qavrayacaqlar. Bu, həm də imkan verəcək ki, onlar komanda ilə ünsiyyətə girə bilsinlər. “Zetlər” öyrənmək və kompetensiyanı artırmaqdan heç vaxt imtina etməyəcəklər.

**Z-lər eyni anda bir neçə işlə məşğul ola bilərlər. Həm televizora baxır, həm kompüterdə işləyir, həm də smartfonda yazışırlar. Bunun işin görülməsinə kömək etdiyini və ya mane olduğunu biz gələcəkdə biləcəyik. Hələliksə o məlumdur ki, yeni nəslin nümayəndələrinin 11%-i diqqət çatışmazlığı və hiperaktivlik sindromunun daşıyıcılarıdır. Vəziyyətin çətinliyi ondan ibarətdir ki, Z-ləri iş vaxtı sosial şəbəkələrdən ayırmaq mümkün deyil, bu, məhsuldarlığın artımına deyil, əksinə, azalmasına səbəb olacaq.**

Yeni nəsillə ünsiyyət tərzinə də diqqət yetirmək lazımdır. Onlar qısa mətnlərlə (snack-media) danışmağa alışıblar. Onların beyni tam başqa formada inkişaf edib: çoxlu məlumatı ala və tez analiz edə bilir, ancaq informasiyanı uzun müddət üçün saxlaya bilmir. Ona görə də Z-lərə işlə bağlı verilən təlimatlar qısa və dəqiq olmalıdır. Layihə barədə uzun-uzadı danışmaq lazım deyil. Lakonik formada izah edin ki, nə etmək lazımdır. “Zetlər” canlı ünsiyyətə önəm verirlər, bu baxımdan, onlara tapşırığı birbaşa söhbət zamanı, yaxud videobağlantı vasitəsilə vermək daha məqsədəuyğundur. Sorğular göstərir ki, Z-lərin 72%-i rəhbərlə üz-üzə ünsiyyətdə olmaq istəyir. Bu, onlar tərəfindən etimad nümayişi kimi qəbul ediləcək. Ancaq bir məqam da var: hesab olunur ki, rəhbər canlı ünsiyyətindən sonra Z-ə verdiyi tapşırığı ona mətn formasında da göndərsə, yaxşı olar. “Sparks & honey”in hesablamalarına görə, “zetlər” diqqətlərini orta hesabla 8 saniyə ərzində konsentrasiya edə bilirlər. Sonra rəhbərin onlara nə dediklərini unutma ehtimalı yüksəkdir.

Hesablamalar göstərir ki, Z nəslin nümayəndələri günlərinin təqribən yarısını onlayn-oyunlarla keçirirlər. Ona görə də bir çox rekruterlər işəgötürənlərə məsləhət görürlər ki, rəhbərlik etdikləri şirkətlərdə tez-tez müxtəlif yarışlar təşkil etsinlər. Özü də uduşlu yarışlar. Sağlam rəqabət naminə qalibin mükafatlandırılması çox vacibdir. Bu, Z-ləri şirkətə loyallığa motivasiya edə bilər.

Z-lərin əməyinə qiymət vermək olduqca vacibdir. Keçirilən sorğulara görə, 2017-ci ilin məzunları əmək və qabiliyyətləri qiymətləndirildiyi halda işlərini uzun müddət tərk etmək istəməyəcəklərini düşünürlər. Onlar belə şirkət və qurumlarda ən azı üç il işləmək niyyətindədirlər. Yeni nəsil nümayəndələrinin içində işəgötürənin onların savad və biliklərindən lazımınca istifadə etmədiklərindən şikayətlənənlər də çoxdur. Buna görə də rəhbər gənc işçinin savadlı və bacarıqlı olduğunu gördüsə, mütləq onu mürəkkəb layihələrlə “yükləməli”, onun istedadını üzə çıxarmalı, potensialından maksimum yararlanmalı və şirkətində ən azı beş il işləməsinə nail olmalıdır.

Hər nəslin öz dəyərləri mövcuddur. Biz bu reallığı anlamalıyıq. Z-lər XXI əsri fəth edəcək, bizlər yox. Anlamalıyıq ki, onlar bizdən fərqlidirlər. Necə ki, biz də əvvəlki nəsildən fərqli olmuşuq. “Yenilər” öyrəniblər ki, hər şey əllərinin altında - deskopda, yaxud smartfonda olsun. Onlar nəyisə hesablamaq üçün ağ vərəq və qələmdən istifadəni anlamırlar. Qısa müddətdə əlavə olunmuş reallıq eynəkləri və ya linzaları açıq satışa çıxacaq, onda heç oxumağa da ehtiyac qalmayacaq. İnternetə daxil olub axtarış elan etmək üçün nəyisə yazmayacaqlar - sadəcə fikirləşmək yetərli olacaq. Peşələrimizin tən yarısını əlimizdən alan süni intellektlə də onlar ünsiyyət yaradacaqlar. Gəlin övladlarımızın niyə bizdən fərqli olduqlarından narazılıq etməyək, bu gerçəkliyi sadəcə anlamağa çalışaq. Bir də... Niyə bütün dünyada təhsilə yanaşmanın dəyişilməsinin vacibliyinə dair həyəcan təbili çalırlar? Cavab tapmaq istəyirsinizsə, övladlarınıza baxın - hesab-kitab, dəftər-qələm onlar üçün maraqsız gəlir.

**P.S.** Z-lərdən əvvəlki nəsil - “milleniallar”, yaxud Y-lər 1985-95-ci illər arasında doğulanlara deyilir. X-lər isə Y-lərdən əvvəlki nəsildir (1963-85-ci illər).

# 1535 nəfər köçürülmək üçün müraciət edib

## Tələbələrin köçürülməsi üzrə sənəd qəbulu başa çatıb



**Oruc MUSTAFAYEV**

Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə elektron sənəd qəbulu başa çatıb.

İyulun 5-dən 20-dək *transfer.edu.az* portalı vasitəsilə həyata keçirilən elektron sənəd qəbulu zamanı ali təhsil müəssisələrindən köçürülmək üçün ümumilikdə 1535 nəfər müraciət edib.Onlardan 13 nəfəri magistratura səviyyəsi üzrə köçürülmək istəyənlərdir. Xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan və köçürülmək istəyənlərin sayı 137 nəfərdir. Ölkə ərazisindəki ali təhsil müəssisələrindən köçürülmək və təhsil alma formasını dəyişmək üçün 1385 nəfər müraciət edib. Orta ixtisas təhsili müəssisələrindən köçürülmək istəyənlərin sayı isə 158 nəfər təşkil edir.

Hazırda köçürülmək və təhsil alma formasını dəyişmək istəyən tələbələrin müraciətlərinə baxılır. Nəticələrin sentyabrın əvvəlinədək açıqlanması nəzərdə tutulur.

Qeyd edək ki, tələbələrin köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir. Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar DİM tərəfindən müəyyən edilmiş eyni ixtisas qrupu daxilində olmalıdır.

Qaydalara müvafiq olaraq xarici ölkələrin akkreditə olunmayan ali təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır. Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

Xatırladaq ki, transfer.edu.az portalı vasitəsi ilə köçürülən tələbələr köçürüldüyü ali təhsil müəssisəsindən və yaxud ixtisasından imtina etmək hüququna malik deyil. Təhsil Nazirliyi tərəfindən yaradılan transfer.edu.az portalı tələbələrin köçürülməsi prosesinin sadələşdirilməsinə və şəffaflığın təmin olunması məqsədinə xidmət edir.




# Dünya ilə yarışan məktəblilərimiz

Azərbaycanlı məktəblilər bu günədək əksər beynəlxalq olimpiadalarda uğurlara imza atıblar. Məktəblilərimiz elə bu ay ərzində keçirilən beynəlxalq olimpiadalarda nailiyyətlər əldə edərək yarışmanın müxtəlif dərəcəli medallarına layiq görülüblər.

Belə ki, 7-14 iyul tarixlərində İsrailin Təl-Əviv şəhərində 50-ci Beynəlxalq Fizika Olimpiadası keçirilib. 80 ölkədən təxminən 400 şagirdin iştirak etdiyi yarışda Cəlilabad şəhəri Nizami Gəncəvi adına 1 nömrəli məktəb-liseyin XI sinif şagirdi Merac Məmmədov olimpiadanın bürünc medalına layiq görülüb.

11-22 iyul tarixlərində Böyük Britaniyanın Bath şəhərində keçirilən 60-cı Beynəlxalq Riyaziyyat Olimpiadasında da (İMO2019) Azərbaycan məktəbliləri nailiyyət əldə ediblər. 110 ölkədən 621 şagirdin iştirak etdiyi bu olimpiadada Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Ramil Cəbiyev, həmin liseyin 10-cu sinif şagirdi Murad Ağazadə, Xəzər Universitetinin nəzdindəki “Dünya” məktəbinin 11-ci sinif şagirdi Anar Rzayev 3 bürünc medal qazanıb.

Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi Ramil Xammədov 14-21 iyul tarixlərində Macarıstanın Szeged şəhərində keçirilən məktəblilərin 30-cu Beynəlxalq Biologiya Olimpiadasında bürünc medal əldə edib.